# DİQQƏT!

## SƏS QƏZETİNDƏN NOVBƏTİ YENİLİK!

Səs qəzeti artıq Azərbaycanda ilk dəfə olaraq Video qəzet formatında nəşrə başladı.

Video xəbəri izləmək üçün telefonunuzun kamera bolməsinə daxil olub QR kodunu telefonunuza oxuduraq ekrana gələn linkə daxil olun.

**QEYD:** Android telefonlar üçün QR Code Reader skine proqramını telefonunuza yükləyərək videolara daxil ola bilərsiniz.



# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 172 (6136) 1 oktyabr 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# "Bu torpaqlarda öz bayrağımızı sancmışıq və artıq bu torpaqlardan bizi heç kim çıxara bilməz"



Bax 2

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan yaralı hərbçilərlə görüşüblər

## Moldova portalı Mehriban Əliyevanın Ermənistanın hərbi təxribatı ilə bağlı fikirlərini dərc edib

Moldovanın nüfuzlu "timpul.md" portalında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Ermənistanın növbəti silahlı təxribatına dair sosial şəbəkə səhifələrində paylaşımı dərc edilib...

Bax 5




## "Beynəlxalq ictimaiyyət Ermənistanın terrorçu qüvvələri Azərbaycana qarşı istifadə etməsinə adekvat reaksiya verməlidir"



Azərbaycan Prezidenti İlham Əliyevin "Rossiya-1" telekanalına müsahibəsində və BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlar seqmentində çıxışı zamanı da qeyd etdiyi kimi, Ermənistan tərəfindən Yaxın Şərq ölkələrindən Azərbaycanın işğal olunmuş ərazilərinə terrorçuların və muzdluların gətirilməsi prosesi var...

Bax 7

## Düşmənə məxsus 8 "Qrad" yaylım atəşli reaktiv sistem məhv edilib



Azərbaycan Ordusunun bölmələrinin bu gün axşam saatlarında keçirdiyi döyüş əməliyyatları nəticəsində düşmənin 8 ədəd "Qrad" yaylım atəşli reaktiv sistemi məhv edilib. Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib...

## XİN: Ermənistan muzdluları gətirməklə terrorçuluğu nümayiş etdirir



Rusiya XİN-in İnformasiya və Mətbuat Departamentinin münaqişə zonasına xarici muzdluların gətirilməsi ilə əlaqədar verdiyi açıqlamaya münasibətdə bildirmək istərdik ki, Ermənistanın bu kimi vasitələrdən geniş istifadə etməsi ilə bağlı narahatlığımız tərəfimizdən dəfələrlə ifadə olunub...

Bax 6

## DTX ermənilərin fəallığı ilə bağlı vətəndaşlara müraciət edib

Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində döyüş əməliyyatlarının aparıldığı müddətdə vətəndaşlarımız tərəfindən yüksək döyüş ruhu və sayıqlıq nümayiş etdirilir. Bu barədə AZƏRTAC-a Dövlət Təhlükəsizlik Xidmətindən bildirilib.

## Milli Məclisin payız sessiyasının ilk iclası keçirilib



Sentyabrın 30-da Milli Məclisin 2020-ci ilin payız sessiyasının açılışı olub. Milli Məclisin Sədri Sahibə Qafarova sessiyanı açıq elan etdi və dövlət himni səsləndirildi...

Bax 10

## ABŞ mediası: "Ermənistan Azərbaycanın mülki əhalisini öldürür, hərbi eskalasiyaya səbəb olur"




Bax 6

## Bəhruz Quliyev: "Azərbaycan öz halal torpaqlarından imtina etməyəcək"



Bax 7

## Paşinyan İrəvanın mərkəzində şil-küt etdilər



# "Bu torpaqlarda öz bayrağımızı sancmışıq və artıq bu torpaqlardan bizi heç kim çıxara bilməz"

## *Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan yaralı hərbçilərlə görüşüblər*

***Sentyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ermənistanın sentyabrın 27-dən başlayan hərbi təxribatı zamanı yaralanan və Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşüblər.***



AZƏRTAC xəbər verir ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənov Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi. Dövlətimizin başçısı görüşdə çıxış etdi.

Prezident İlham Əliyevin çıxışı

-Allah şəfa versin. Əziz uşaqlar, siz Vətən uğrunda gedən döyüşlərdə müxtəlif xəsarətlər almısınız, yaralanmısınız. Həkimlər sizə yaxşı baxırlar. Əminəm, həkimlər əllərindən gələni edəcəklər ki, siz tezliklə sağalıb normal həyata qayıdasınız.

Mənə verilən məlumata görə, bizim bütün yaralı əsgər və zabitlərimiz bir arzu ilə yaşayırlar ki, tezliklə sağalıb yenə də döyüş bölgələrinə getsinlər, Vətən uğrunda haqlı savaşını davam etdirsinlər. Bizim işimiz haqq işidir, biz öz torpağımızda vuruşuruq, Vətən uğrunda vuruşuruq. Bizim davamız ədalətli davadır və əminəm ki, bu münaqişədə biz istədiyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Uzun illər ərzində məcburi köçkün kimi yaşayan soydaşlarımız da öz doğma dədə-baba torpaqlarına qayıdacaqlar.

**"Biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik. Ona görə erməni xalqı bunu anlamalıdır"**



Bildiyiniz kimi, şəhid ailələrinə ölkəmizdə xüsusi diqqət göstərilir, dövlət tərəfindən bütün lazımi işlər görülür. Deyə bilərəm ki, Azərbaycan şəhid ailələrinə göstərilən diqqətə görə dünya miqyasında nümunə sayıla bilər. Bilirsiniz ki, mənim göstərişimlə bütün şəhid ailələri dövlət tərəfindən mənzillərlə, evlərlə təmin edilir. Təkcə bu il 1500 şəhid ailəsi dövlət tərəfindən mənzillərlə təmin ediləcəkdir. Yaxın 2-3 il ərzində birinci Qarabağ müharibəsində həlak olmuş qəhrəman övladlarımızın ailələri tam miqyasda evlərlə, mənzillərlə təmin olunacaqdır. Biz bu gün də şəhidlər veririk, Vətən uğrunda gedən döyüşlərdə şəhidlərimiz olubdur. Allah bütün şəhidlərimizə rəhmət eləsin, Allah onların ailələrinə, yaxınlarına səbir versin. Onların qanı yerdə qalmır və qalmayacaqdır. Düşmənə layiqli cavab verilir.

Eyni zamanda, Qarabağ qazilərinə də dövlət tərəfindən lazımi dəstək göstərilir, onların məişət problemləri həll olunur. Siz də əmin ola bilərsiniz ki, dövlət sizin yanınızda olacaq və sizin tezliklə burada sağalıb normal həyata qayıtmağınız üçün həkimlər əllərindən gələni edirlər və edəcəklər.

Mən bir daha demək istəyirəm ki, Azərbaycan öz doğma torpağında vuruşur və siz haqq yolunda yaralanmısınız. Bizim əsgərlərimiz xilaskar əsgərlərdir. Erməni əsgərləri işğalçı əsgərlərdir. Fərq bundadır. Biz öz torpağımızda vuruşuruq, erməni əsgəri başqa dövlətin torpağında - Azərbaycan torpağında ölür. Mən erməni xalqına üz tutub demək istəyirəm ki, onlar öz rəhbərliyinin çirkin əməllərinin girovuna çevrilməsinlər. Bu gün öz hökumətini məsuliyyətə cəlb etsinlər. Öz övladlarını Azərbaycan torpaqlarına göndərməsinlər. Nə işi var erməni əsgərinin Azərbaycan torpağında? Biz öz torpağımızda vuruşuruq. Bizim əsgər və zabitlərimiz öz torpağında həlak olur, öz torpağında yaralanır və biz öz torpaqlarımızı azad edirik. Artıq dördüncü gün davam edən döyüşlərdə Azərbaycan Ordusu uğurlu əməliyyat keçirərək strateji yüksəklikləri işğalçılardan azad edib, bir neçə yaşayış məntəqəsini işğaldan azad edib, uzun fasilədən sonra biz bu torpaqlara qayıtmışıq. Bu torpaqlarda öz bayrağımızı sancmışıq və artıq bu torpaqlardan bizi heç kim çıxara bilməz, biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik. Ona görə erməni xalqı bunu anlamalıdır. Anlamalıdır ki, 30 ilə yaxın başqa dövlətin torpağını zəbt etmək, orada bütün binaları, bütün tarixi abidələri dağıtmaq, 1 milyondan çox insanı öz doğma torpağından didərgin salmaq, Azərbaycan xalqına qarşı soyqırımı törətmək cinayətdir. Biz tarixi ədaləti bərpa edirik, tarixi ədaləti! Qarabağ bizim doğma, əzəli, tarixi torpağımızdır.

**Ardı Səh. 3**

# “Bu torpaqlarda öz bayrağımızı sancmışıq və artıq bu torpaqlardan bizi heç kim çıxara bilməz”

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan yaralı hərbçilərlə görüşüblər*

**Əvvəli-Səh-2**

Qarabağ xanlığının tarixinə baxmaq kifayətdir ki, hər kəs görsün, Azərbaycan xalqı əsrlər boyu bu torpaqlarda yaşayıb, qurub, yaradıb. Bizim müqəddəs ocağımız Şuşa şəhəri azərbaycanlılar tərəfindən salınıb. Bu gün işğal altında olan torpaqlar bizim tarixi torpaqlarımızdır. Bizim işimiz haqq işidir. Biz öz ərazi bütövlüyümüzü bərpa etmək istəyirik, buna bizim haqqımız çatır, bunu edirik və edəcəyik.

Erməni xalqı əgər sülh şəraitində yaşamaq istəyirsə, öz hakimiyyətini məsuliyyətə cəlb etsin. Çünki erməni xalqının bədbəxtliyi ondan ibarətdir ki, uzun illər ərzində ona quldur kriminal rejim rəhbərlik edib. O rejim ki, ancaq öz şəxsi maraqlarını güdmək üçün azərbaycanlılara qarşı soyqırımı törədib və bizim torpaqlarımızı işğal altında saxlayır. Mən əminəm ki, erməni xalqı mənim bu sözlərimi düzgün başa düşəcək, düzgün anlayacaq. Bizim erməni xalqı ilə işimiz yoxdur. Azərbaycan çoxmillətli dövlətdir və burada bir çox millətlər sülh, əmin-amanlıq şəraitində yaşayır, o cümlədən erməni xalqı. Minlərlə erməni Azərbaycan ərazisində yaşayır. Onlara söz deyən yoxdur, onlar bizim vətəndaşlarımızdır. Ona görə bizim davamız dava haqq davasıdır. Ona görə mən bir daha demək istəyirəm ki, bizim işimiz haqq işidir, tarixi həqiqət, beynəlxalq hüquq, haqq-ədalət 100 faiz bizim tərəfimizdədir.

Sentyabrın 27-də erməni silahlı birləşmələri bizə qarşı növbəti hərbi təxribat törədib. Mən onları xəbərdar etmişdim. Onlara BMT kürsüsündən sözlərimi demişdim. Bütün beynəlxalq ictimaiyyətə sözlərimi demişdim ki, Ermənistan yeni müharibəyə hazırlaşır, Ermənistan dayandırılmalıdır. Əfsuslar olsun ki, beynəlxalq ictimaiyyət və bu məsələ ilə məşğul olan tərəflər erməni hökumətinə lazımi səviyyədə təsir edə bilməmişlər. Əgər onlar işğalçını dayandıra bilmirlərsə, Azərbaycan əsgəri onları dayandıracaqdır. Azərbaycan əsgəri onları öz torpaqlarından çıxaracaq və haqq-ədaləti bərpa edəcək. Mən demişdim ki, əgər iyul və avqust aylarında bizə qarşı törədilmiş həbi təxribatlar təkrarlanarsa, Ermənistan peşman olacaq və sözümün üstündə dururam. Bu gün döyüş meydanında əldə olunmuş üstünlük, azad edilmiş yaşayış məntəqələrimiz, strateji yüksəkliklər bir daha onu göstərir ki, Azərbaycan əsgəri, Azərbaycan zabiti öz vətəndaşlıq borcunu şərəflə yerinə yetirir.



*“Bizim əsgərlərimiz xilaskar əsgərlərdir. Erməni əsgərləri işğalçı əsgərlərdir. Fərq bundadır. Biz öz torpağımızda vuruşuruq, erməni əsgəri başqa dövlətin t orpağında - Azərbaycan torpağında ölür. Mən erməni xalqına üz tutub demək istəyirəm ki, onlar öz rəhbərliyinin çirkin əməllərinin girovuna çevrilməsinlər”*





haqq davasıdır. Biz tarixi nöqteyi-nəzərdən, beynəlxalq hüquq nöqteyi-nəzərdən, ədalət nöqteyi-nəzərdən haqlıyıq. Azərbaycan əsgəri, zabiti öz doğma torpağı uğrunda vuruşur. Bu gün Füzulidə, Cəbrayılda, işğal edilmiş digər ərazilərdə şiddətli döyüşlər gedir və biz itkilər veririk, bizim qazilərimiz, hərbçilərimiz yaralanır. Amma bu

Ermənistan işğalçılıq siyasətinə son qoymalıdır. Bunun əvəzinə Ermənistanın baş naziri bizə qarşı şərtlər qoyur. Bizə qarşı yeddi şərt qoyubdur. Mən bir müddət bundan əvvəl demişdim ki, biz bu şərtləri rədd edirik. Bizim bir şərtimiz var, torpaqlarımızdan qeyd-şərtsiz, tam və dərhal çıxıb rədd olmalıdırlar. Bu şərtim qüvvədədir və əgər bu şərtimə Ermənistan hökuməti əməl edərsə, döyüşlər dayanacaq, qan tökülməyəcək, sülh olacaq, bizim bölgəmizə sülh gələcək. Biz sülh istəyirik, biz məsələnin həllini istəyirik, əks təqdirdə 30 ilə yaxın danışıqlara ümid bəsləməzdik. Danışıqlara bizim sadiq qalmağımızın yeganə səbəbi o idi ki, ümid var idi. Bizə ümidlər verilirdi, bizə siqnallar göndərilirdi ki, bir qədər səbir edin, məsələ həll olunacaq. Amma mən demişdim ki, Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq. Demişdim ki, əgər məsələ danışıqlar yolu ilə həll olunmazsa, Azərbaycanın tam haqqı var ki, məsələ hərbi yolla öz həllini tapsın.

*Ardı Səh. 4*

# "Bu torpaqlarda öz bayrağımızı sancmışıq və artıq bu torpaqlardan bizi heç kim çıxara bilməz"

## *Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan yaralı hərbçilərlə görüşüblər*



Əvvəli-Səh-3

Bu haqqı bizə Azərbaycan xalqı verib, bu haqqı bizə beynəlxalq hüquq normaları verib. Dünyanın ali beynəlxalq qurumu olan BMT-nin nizamnaməsində göstərilir ki, hər bir dövlətin özünümüdafiə haqqı var və biz bundan istifadə edirik, özümüzü müdafiə edib, əks-hücum əməliyyatına keçib bu gün düşmənə sarsıdıcı zərbələr endiririk.

Hələ ki gec deyil. Mən bir daha sözümü demək istəyirəm ki, Ermənistan bizim torpaqlarımızdan dərhal çıxmalıdır. Bilirsiniz ki, indi müxtəlif beynəlxalq təşkilatların, müxtəlif ölkələrin rəhbərləri mənə zəng edirlər, məsələ ilə bağlı maraqlanırlar, öz fikirlərini söyləyirlər. Mənim sözüm birdir, həm beynəlxalq müstəvidə, həm ölkə daxilində ki, biz haqq yolundayıq, döyüşlər Azərbaycan torpağında gedir, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edir və bizim buna tam haqqımız çatır. Çünki dünyanın heç bir dövləti qondarma "Dağlıq Qarabağ respublikası"nı tanımır. Bu, bizim tarixi torpağımızdır. Beynəlxalq hüquq baxımından da bu, bizim torpağımızdır.

Mən əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Orduda ruh yüksəkliyi var. Siz də bunu yaxşı bilirsiniz. Cəmiyyətdə ruh yüksəkliyi var. Mənə artıq bu son 3-4 gündə hər gün çoxlu məktublar gəlir, həm ölkə vətəndaşlarından, həm də digər ölkələrin vətəndaşlarından. Xaricdən ən çox məktublar qardaş Türkiyədən gəlir. Türk qardaşlarımız o məktublarda bizimlə bərabər bu haqlı davada vuruşmaq barədə öz istəklərini ifadə edirlər. Mən onlara təşəkkür edirəm. Amma bir daha demək istəyirəm ki, buna ehtiyac yoxdur. Azərbaycan Ordusu kifayət qədər güclü ordudur, təchiz edilmiş ordudur. Biz bu işi elə həll etməliyik ki, tarixi ədalət bərpa olunsun. Eyni zamanda, qardaş Türkiyəyə, onun Prezidentinə, mənim qardaşım Rəcəb Tayyib Ərdoğana qətiyyətli mövqeyinə, qardaşlıq mövqeyinə görə bu gün sizin yanınızda sizin adınızdan, bütün Azərbaycan xalqı adından dərin təşəkkürümü bildirirəm. Çünki əziz qardaşımın çox açıq açıqlamaları və sərt bəyanatları bir daha göstərir ki, Azərbaycan tək deyil. Türkiyə Azərbaycanın yanındadır və Azərbaycan da hər zaman Türkiyənin yanındadır! Mən artıq demişəm, bir daha demək istəyirəm ki, bu qanlı döyüşlər bizim üçün, bütün Azərbaycan xalqı üçün həqiqət anıdır. Biz görürük kim kimdir. Biz görürük ki, bəzi hallarda yaxşı sözlər deyən, yaxşı bəyanatlar verən bəzi tərəflər öz sözünün arxasında durmur. Sözdə bir şey deyilir, əməldə başqa şey edilir. Amma Türkiyə, Pakistan, Əfqanıstan birmənalı şəkildə Azərbaycanı dəstəklədilər. Bilirsiniz, danışıqlarla məşğul olan beynəlxalq format var. Əfsuslar olsun ki, bu format, heç bir nəticə hasil etməyib. Ona görə indiki şəraitdə hansısa tərəflərdən dialoqa çağırış hesab edirəm ki, yersizdir. Bunu beynəlxalq təşkilatlar edir, bunu BMT edir. Biz bunu təbii ki, qəbul edirik. Bunu ATƏT edir, biz bunu qəbul edirik. Çünki ATƏT-in mandatı var. Yoxsa ki, kimsə deyir gəlin belə dialoqu başlayaq, biz də kömək edək, bunlara ehtiyac yoxdur. İndi həqiqət anıdır. Sən kimin tərəfindəsən? Haqqın, yoxsa, şərin? Dostun, yoxsa, düşmənin? Həqiqət anıdır-mənim üçün, xalqımız üçün, hamımız üçün.

Əlbəttə ki, bu günlərdə bizə dəstək olan ölkələri, təşkilatları, insanları heç vaxt unutmayacağıq. Bilirsiniz ki, Azərbaycan dünyada güclü mövqelərə malikdir. Son illər ərzində biz beynəlxalq təşkilatlarda kifayət qədər səmərəli fəaliyyət göstərmişik və haqlı olduğumuzu sübut edə bilmişik. Biz bunu sübut etməli idik ki, biz haqlıyıq. Artıq demək olar ki, bütün əsas beynəlxalq təşkilatlar bizim mövqeyimizi dəstəkləyir. BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Avropa Parlamenti, ATƏT - bütün bu təşkilatlar bizim mövqeyimizi dəstəkləyən bəyanatlar veriblər. Biz buna görə minnətdarıq. Bu, məsələnin hüquqi tərəfidir. Tarixi tərəfinə gəldikdə isə, tarixi həqiqət bizim tərəfimizdədir. Hər kəs internetə girib oxuya bilər. Qarabağ xanlığının tarixi ilə əlaqədar materiallar var. Qarabağ xanlığının Rusiya imperiyasına daxil edilməsi ilə əlaqədar məlumatlar var. Kürəkçay sülh müqaviləsi haqqında məlumatlar var. Kürəkçay sülh müqaviləsini bir tərəfdən bağlayan İbrahim Xəlil Xan şuşalı və qarabağlı, - müqavilədə belə də yazılmışdır, - şuşalı və qarabağlı İbrahim Xəlil Xan. Digər tərəfdən çar Rusiyasının generalı imzalamışdır. Kürəkçay sülh müqaviləsində erməni xalqı haqqında bir kəlimə də yoxdur. Bu, nəyi göstərir? Onu göstərir ki, o vaxt orada erməni əhalisi olmayıb, ondan sonra köçürülüb. Ondan sonra onlar artıq orada yerləşiblər və sonra bizə qarşı ərazi iddiaları qaldırıblar. Ona görə biz tamamilə haqlıyıq. Bizim davamız haqq davasıdır. Biz öz prinsipial mövqeyimizdən dönməyəcəyik. Mən bunu bütün beynəlxalq kürsülərdən dəfələrlə demişəm, bu gün də deyirəm ki, biz haqq yolundayıq. Ərazi bütövlüyümüzü bərpa etməliyik və edəcəyik.

Mənə gələn məlumatlar onu göstərir ki, bu son üç-dörd günün hadisələri Ermənistan rəhbərliyi üçün dərs olmur. Onlar yeni təxribatlar hazırlayır, bizim yaşayış məntəqələrimizi yenə də atəşə tutmaq istəyirlər və bunu davam edirlər. Hər gün mülki əhali arasında itkilərimiz artır. Dünən səhərə olan məlumata görə bizim 10 mülki vətəndaşımız həlak olmuşdur. Bu gün səhər mənə verilən məlumata görə isə həlak olan mülki vətəndaşların sayı 13-ə çatıb. Bu, nə deməkdir? Bu, erməni faşizminin eybəcər sifətini göstərir. Biz mülki əhaliyə qarşı heç vaxt vuruşmamışıq. Əks-hücum əməliyyatı başlanan kimi mən bizim bütün komandanlara və Müdafiə Nazirliyinə göstəriş verdim ki, mülki əhaliyə qarşı heç bir addım atılmamalıdır. Bizim hədəflərimiz erməni silahlı birləşmələrinin mövqeləri, texnikası, canlı qüvvəsidir. Amma onlar bizim kəndlərimizi, şəhərlərimizi atəşə tuturlar, 13 dinc insan həlak olub, 40-dan çox mülki şəxs yaralanıb, 168 ev dağıdılıb. Budur erməni faşizminin sifəti. Onlar döyüş meydanında bizim qarşımızda dura bilmirlər, kəndlərimizi, şəhərlərimizi vururlar. Amma orada yaşayan soydaşlarımızın hamısı yerindədir, hamısı "Vətən sağ olsun" deyirlər. Bir santimetr geri addım atmayıblar və əminəm ki, atmayacaqlar. Onlar əmindirlər ki, Azərbaycan Ordusu onları müdafiə edəcək. Onlar səbirsizliklə o anı gözləyirlər ki, işğal edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırılsın və işğala son qoyulsun.

Mən sizi təbrik etmək istəyirəm. Çünki siz gənc yaşlarınızda böyük qəhrəmanlıq, şücaət göstərib, Vətən uğrunda şərəflə vuruşub öz adlarınızı Azərbaycan tarixinə yazdırırsınız. Eyni zamanda, sizi belə vəziyyətdə görmək mənim üçün, hamımız üçün çox ağırdır. Amma əmin ola bilərsiniz ki, sizin sağlamlığınız üçün nə lazımsa, biz onu da edəcəyik. Bizim bütün xəstəxanalarda, hərbi hospitallarda hazırda müalicə alan hər bir insan xüsusi qayğıya layiqdir və bütün həkimlər, nəinki həkimlər, bizim bütün xalqımız sizə dəstək olmalıdır. Siz əmin ola bilərsiniz ki, dövlət sizin yanınızda olacaq. Bir arzumuz var ki, siz tezliklə sağalıb, normal həyata qayıdıb öz şərəfli missiyanızı davam etdirəsiniz. Gənclər üçün siz nümunə olmalısınız, örnək olmalısınız. Azərbaycan xalqı qəhrəman xalqdır ki, sizin kimi övladlar yetişdirib.

Mən fürsətdən istifadə edib, sizin və bu gün bütün digər yaralı hərbçilərimizin, eyni zamanda, şəhid olmuş hərbçilərimizin valideynləri qarşısında baş əyirəm. Onlara öz adımdan, Azərbaycan xalqı adından təşəkkürümü bildirirəm. Qəhrəman övladlar yetişdiriblər. Əminəm ki, onlar və bütün Azərbaycan xalqı sizinlə qürur duyur. Biz zəfər çalacağıq, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

Mayor Etibar Camalov: Cənab Ali Baş Komandan, cənab Prezident, çox sağ olun. Həqiqətən də Azərbaycan əsgəri düşmənin qarşısını aldı, düşmənə layiqli cavablar verdi. Bu gün də, hər bir insan yenə ön xəttə qayıtmağa hazırdır. Sizin bu qüdrətli sözlərinizdən biz qürur duyuruq. Hər zaman torpağımız, dövlətimiz üçün şam kimi yanmağa hazırıq. Çox sağ olsun həkim kollektivi, bizə çox böyük diqqət göstərir. Çox yaxın bir zamanda bütün döyüşçü yoldaşlarımızla cəbhə bölgəsinə qayıtmağa hazırıq. Çox sağ olun.

Sonda xatirə şəkli çəkdirildi.

# "Ermənistan rəhbərliyi şüurlu şəkildə danışıqlar prosesini pozur"

*Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Prezident İlham Əliyevə telefonla zəng edib*



**_Sentyabrın 30-da Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel təmas xəttində hərbi əməliyyatların başlamasından narahatlığını ifadə edib və münaqişənin sülh yolu ilə nizamlanmasının zəruri olduğunu bildirib._**

Dövlətimizin başçısı Ermənistanın Azərbaycana qarşı törətdiyi və bu gün də davam edən növbəti hərbi təxribatı ilə bağlı vəziyyət barədə məlumat verərək qeyd edib ki, sentyabrın 27-də Ermənistan tərəfinin qoşunların təmas xətti boyu yaşayış məntəqələrimizi, hərbi birləşmələrimizin mövqelərini ağır artilleriya qurğularından atəşə tutması nəticəsində 14 mülki şəxsimiz və hərbi qulluqçularımız həlak olublar. Prezident İlham Əliyev bildirib ki, Azərbaycan Ordusu buna cavab olaraq əks-hücum əməliyyatları həyata keçirir. Azərbaycan Prezidenti qeyd edib ki, Ermənistan rəhbərliyi şüurlu şəkildə danışıqlar prosesini pozur. Belə ki, Ermənistan baş nazirinin "Dağlıq Qarabağ Ermənistandır" bəyanatı danışıqlar prosesinə ciddi zərbə vurub. "Azərbaycan Dağlıq Qarabağla danışıqlar aparmalıdır" bəyanatı isə danışıqlar formatının dəyişdirilməsi cəhdidir ki, bu da qəbuledilməzdir və Minsk qrupunun rəhbərliyi də bunu bildirib.

Dövlətimizin başçısı vurğulayıb ki, Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərinə başqa ölkələrdən xarici vətəndaşların qanunsuz məskunlaşmasını həyata keçirir ki, bu da Cenevrə Konvensiyasına görə beynəlxalq hüququn ciddi pozulmasıdır, hərbi cinayətdir. Prezident İlham Əliyev bildirib ki, Ermənistan baş naziri hələ sentyabrın 27-si hərbi toqquşmalar baş verməzdən əvvəl on minlərlə könüllüdən ibarət hərbi birləşmələrin yaradılması barədə qərar vermişdi. Bu, Ermənistanın növbəti təcavüzə hazırlaşması mənası daşıyırdı. Dövlətimizin başçısı Ermənistanın hərbi təxribatı ilə bağlı hadisələrin gələcək inkişafına görə məsuliyyətin Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşdüyünü bildirib.

# Moldova portalı Mehriban Əliyevanın Ermənistanın hərbi təxribatı ilə bağlı fikirlərini dərc edib




Moldovanın nüfuzlu "timpul.md" portalında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Ermənistanın növbəti silahlı təxribatına dair sosial şəbəkə səhifələrində paylaşımı dərc edilib.

AZƏRTAC xəbər verir ki, "Mehriban Əliyeva: Azərbaycan dövləti heç vaxt başqasının torpaqlarına iddialı olmayıb, o, doğma torpağını qoruyur və onun uğrunda döyüşür!" sərlövhəli məqalədə Birinci vitse-prezidentinin fikirlərinə geniş yer verilib.

Məqalədə birinci xanımın paylaşımındakı aşağıdakı fikirlər də sitat gətirilib: "Ermənistanın növbəti silahlı təxribatına cavab verildi! Azərbaycan Ordusu öz Vətənini müdafiə edərək uğurlu əks-hücum əməliyyatı keçirir və Azərbaycanın işğal altında olan ərazilərini azad edir. Azərbaycan dövlətinə və xalqına dəstək olaraq öz prinsipial və ədalətli mövqeyini nümayiş etdirən bütün insanlara, təşkilatlara və dövlətlərə dərin təşəkkürümü bildirirəm. İlk növbədə, qardaş Türkiyə xalqına və şəxsən Prezident Rəcəb Tayyib Ərdoğana minnətdaram. Onların həmrəyliyi və mənəvi dəstəyi bu gün hər bir azərbaycanlıya qürur hissi yaşadır. Azərbaycanın bütün əsgərlərinin, zabitlərinin həyatı və sağlamlığı üçün dua edirəm!

Bu gün biz azərbaycanlılar niyyətimizlə, hərəkət və dualarımızla misli görülməmiş birlik göstəririk. Ulu Tanrı Azərbaycan xalqına onun müqəddəs mübarizəsində yar olsun!".

# BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağdakı vəziyyətlə bağlı fövqəladə iclası keçirilib



BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağdakı vəziyyətlə bağlı fövqəladə iclası keçirilib. SİA-nın xəbərinə görə, bağlı qapılar arxasında keçən iclasda Şuranın 15 daimi və qeyri-daimi üzvü iştirak edib.

Təhlükəsizlik Şurasının üzvləri Dağlıq Qarabağ münaqişəsi zonasında təmas xətti boyunca irimiqyaslı hərbi əməliyyatlarla bağlı xəbərlərdən narahatlıqlarını ifadə ediblər. Üzvlər güc tətbiq edilməsini kəskin şəkildə qınayaraq, mülki şəxslər də daxil olmaqla, insan tələfatından təəssüfləndiklərini bəyan ediblər. Təhlükəsizlik Şurası üzvləri, BMT Baş Katibinin tərəflərin döyüşü dərhal dayandırmaq, gərginliyi azaltmaq və gecikmədən substantiv danışıqlara qayıtmaq çağırışını dəstəklədiklərini bəyan ediblər. Təhlükəsizlik Şurasının üzvləri ATƏT-in Minsk Qrupu həmsədrlərinin mərkəzi rolunu tam dəstəklədiklərini bildiriblər və tərəfləri ilkin şərtlər olmadan dialoqun təcili bərpası üçün Minsk Qrupu həmsədrləri ilə işləməyə çağırıblar.

# Hikmət Hacıyev: "Ermənistan işğalçıdır, Azərbaycan isə ədaləti bərpa edir"



"Ermənistan işğalçıdır, Azərbaycan isə ədaləti bərpa edir". SİA-nın məlumatına görə, bunu Prezidentin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "TRT World" telekanalına müsahibəsində deyib. H.Hacıyev Ermənistanın Azərbaycana qarşı təxribatçı fəaliyyətindən və aqressiyasından, rəsmi Yerevanın qeyri-adekvat bəyanatlarından danışıb, eləcə də ermənilərin "vurulmuş SU-25 qırıcısı" barədə saxta xəbəri ifşa edib. O qeyd edib ki, Azərbaycanın radarlar sistemində Ermənistan ərazisindən Su-25 təyyarəsinin havaya qalxması barədə məlumat yoxdur.

# DTX ermənilərin fəallığı ilə bağlı vətəndaşlara müraciət edib



Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində döyüş əməliyyatlarının aparıldığı müddətdə vətəndaşlarımız tərəfindən yüksək döyüş ruhu və sayıqlıq nümayiş etdirilir. Bu barədə AZƏRTAC-a Dövlət Təhlükəsizlik Xidmətindən bildirilib.

Bununla yanaşı, Ermənistan xüsusi xidmət orqanlarının bilavasitə diktəsi ilə fəaliyyət göstərən ermənilər və digər xarici ölkə vətəndaşları Azərbaycan əhalisi arasında gərginlik yaratmaq, ictimai rəyi yönləndirmək, cəmiyyətdə etnik zəmində qarşıdurma yaratmaq, Silahlı Qüvvələrimizin döyüş əməliyyatları, taktiki yerdəyişmələri, texniki-təchizat tədbirləri, ictimaiyyətin hərbi əməliyyatlara və səfərbərlik məsələlərinə münasibəti və sair barədə məlumatları əldə etmək məqsədilə sosial şəbəkə və media profilləri, akkauntları, messencerlər, SMS və elektron poçt xidmətləri vasitəsilə səs mesajlarını, dezinformasiya xarakterli mətnləri, montaj olunmuş saxta foto-video materialları yayaraq fəallıqlarını xeyli artırıb.

Erməni tərəfi Azərbaycan Ordusunun hərbi uğurlarına inamsızlıq yaratmaq üçün fəaliyyətini ardıcıl olaraq davam etdirir, Azərbaycan sakinləri ilə təmas qurmağa, bəzi şirnikləndirici və ödəniş təklifləri ilə onlar arasında məqsədli sorğular keçirməyə cəhd göstərir.

Qeyd olunanlarla əlaqədar, vətəndaşlarımızı düşmən təxribatlarına uymamağa çağırır, onlara ünvanlanan kəşfiyyat-təxribat xarakterli müraciətlər haqqında WhatsApp və Telegram (+994774059999) kanalları vasitəsilə Dövlət Təhlükəsizliyi Xidmətinə məlumat verməkləri xahiş olunur.

# ABŞ mediası: “Ermənistan Azərbaycanın mülki əhalisini öldürür, hərbi eskalasiyaya səbəb olur”

***ABŞ-ın müxtəlif media saytlarında Ermənistanın Azərbaycana qarşı növbəti təcavüzü haqqında məqalələr dərc olunub. Bu barədə AZƏRTAC-a Azərbaycanın ABŞ-dakı səfirliyindən məlumat verilib.***

Səfirlik tərəfindən hazırlanan məqalədə qeyd olunur ki, Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni yerləşən Ermənistan silahlı qüvvələri sentyabrın 27-də atəşkəs rejimini bir daha pozaraq mülki əhalinin məskunlaşdığı yerləri, həmçinin təmas xətti boyunca Azərbaycan Ordusunu kütləvi artilleriya atəşinə tutub.


yahoo!finance

WASHINGTON, Sept. 28, 2020 /PRNewswire/ -- Embassy of the Republic of Azerbaijan to the United States -- On September 27, 2020 the armed forces of Armenia illegally stationed on Azerbaijan's occupied territories once again blatantly violated the ceasefire regime and launched a massive artillery attack targeting residential areas, as well as the armed forces of Azerbaijan along the line of contact.

Azerbaijani civilian injured by Armenian artillery shelling

As a result of the shelling of Azerbaijani villages, a number of civilians were killed and many more injured. Extensive damage has been inflicted on houses and civilian infrastructure. So

Azərbaycan kəndlərinin bombalanması nəticəsində bir sıra mülki şəxs həlak olmuş, bir çoxu yaralanıb. Yaşayış yerlərinə və mülki infrastruktura ciddi ziyan dəyib. İndiyə qədər 19 mülki şəxs yaralanıb və xəstəxanaya yerləşdirilib. Azərbaycanın Naftalan rayonunda yalnız bir evin atəşə tutulması nəticəsində uşaqlar da daxil olmaqla bir ailənin bütün üzvləri Ermənistan qüvvələri tərəfindən qətlə yetirilib.

Ermənistanın sonuncu təxribatları 12-14 iyul tarixlərində beynəlxalq sərhəd boyunca Tovuz rayonu istiqamətində Azərbaycana qarşı törədilib və Azərbaycan tərəfinin general mayorunu və 76 yaşlı mülki vətəndaşını itirdiyi hücumların davamıdır.

BMT Baş Assambleyasının 75-ci sessiyasında çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev Ermənistanın müharibəyə hazırlaşdığı barədə beynəlxalq ictimaiyyətə xəbərdarlıq edib. Rusiyadan silahların kütləvi şəkildə Ermənistana daşınmasının son aylarda intensivləşməsi açıq müharibə hazırlığının göstəricisi idi. Bununla yanaşı, cari sülh prosesini açıq şəkildə rədd edən və daha çox ərazilərin işğalına səsləyən Ermənistan baş naziri Paşinyanın və müdafiə naziri Tonoyanın müharibəyə çağıran bəyanatları Fransa, Rusiya və ABŞ-ın həmsədrlik etdiyi danışıqlar prosesinə ciddi zərbə vurub. Bu xüsusda Prezident İlham Əliyevin Ermənistanın davamlı hərbi təxribatları barədə BMT-dəki xəbərdarlığı Ermənistanın az sonra mülki azərbaycanlılara qarşı hücum etməsi ilə öz təsdiqini tapıb.

Döyüşlərin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini pozaraq Ermənistan tərəfindən işğal edilmiş Azərbaycanın beynəlxalq suveren ərazilərində aparılmasının dərk edilməsi olduqca vacibdir. Prezident İlham Əliyev tərəfindən qeyd edildiyi kimi, iyulda sərhəd boyunca hücuma keçən Ermənistandan fərqli olaraq, Azərbaycanın Ermənistan Respublikasının ərazisində heç bir hərbi məqsədi yoxdur. Azərbaycan hər zaman iki ölkənin firavan gələcəyi naminə müfəssəl və nəticələrə yönəlmiş danışıqları dəstəkləyib. Biz dünya ictimaiyyətini Azərbaycan ərazilərinin qanunsuz işğalının davam etdirilə bilinməyəcəyini və qəbuledilməzliyini Ermənistana izah etməyə çağırırıq. Ümid edirik ki, regionumuzda davamlı sülh qalib gələcək.

# Pakistan Senatı Ermənistanın Azərbaycana hücumunu pislədi



Pakistan Senatında olan iqtidar və müxalifət partiyaları qruplarının rəhbərləri və digər senatorlar Ermənistanın Azərbaycana qarşı təxribat və təcavüzlərini pisləyib. Pakistanın Azərbaycandakı səfirliyindən verilən məlumata görə, Pakistan Senatı erməni qüvvələrinin Azərbaycanın mülki obyektlərinə və hərbi mövqelərinə mənfur və provokativ təcavüzü şiddətli şəkildə pisləndiyini və qınanıldığını bildirib: “Biz Azərbaycanın öz ərazi bütövlüyünü və xalqını süveren bir dövlət olaraq qorumaq haqqını, eləcə də BMT Təhlükəsizlik Şurası səviyyəsində Dağlıq Qarabağla bağlı haqlı mövqeyini tam şəkildə dəstəkləyirik. Beynəlxalq ictimaiyyət və BMT müdaxilə etməli və Ermənistanın regional sülhü və təhlükəsizliyi ciddi şəkildə təhdid edən gərginliyə əl atmasını dayandırmalıdır. İşğal olunmuş Azərbaycan torpaqlarının azad olunması üçün erməni qüvvələrinin dərhal Dağlıq Qarabağdan çıxması və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrində göstərildiyi kimi münaqişənin sülh yolu ilə həll olunması tələb olunur”.

Pakistan Senatında iqtidar partiyasından olan senatorlar qrupunun rəhbəri Dr. Şahzad Vasim Azərbaycanın Qarabağ regionunda ermənilər tərəfindən törədilən və itkilərə yol açan mənfur hücumu şiddətlə qınayıb və Qarabağ məsələsində Azərbaycanın ədalətli mövqeyini dəstəkləyib.

Senator Sehar Kamran da bu çətin gündə Azərbaycan xalqının yanında olduğunu bildirib: “Təmas xətti boyunca erməni qüvvələri tərəfindən Azərbaycanın mülki əhalisinin hədəf alınması BMT Təhlükəsizlik Şurasının qətnamələrinin və beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulmasıdır. Beynəlxalq sülhə və təhlükəsizliyə ciddi təsirləri ola biləcəyi üçün hər hansı bir hərbi gərginliyin qarşısının alınması vacibdir”.

# Düşmənin döyüş meydanında ataraq qaçdığı hərbi texnikalar










Şanlı Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrinin təxribatlarının qarşısını qətiyyətlə alaraq əks-hücumlarını davam etdirir.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, sentyabrın 29-u səhər saatlarından etibarən Füzuli şəhərinin işğaldan azad olunması uğrunda Azərbaycan Ordusunun hücumu davam edir. Təkcə ötən gün səhər saatlarında cəbhənin Füzuli-Cəbrayıl istiqamətində Ermənistan qoşunlarının daha 4 tankı qəhrəman əsgərlərimiz tərəfindən sıradan çıxarılıb.

Erməni hərbçiləri darmadağın edilmiş hərbi hissələrində çoxlu sayda döyüş və hərbi texnikalarını qoyub qaçıblar. Düşmənin xeyli sayda canlı qüvvəsi məhv olunub. Düşmənin ataraq qaçdığı URAL və UAZ avtomobillərini AZƏRTAC-ın cəbhə zonasına ezam olunmuş fotoqrafı Tofik Babayev lentə alıb. Fotoları təqdim edirik.

## Azərbaycanın Müdafiə Nazirliyi düşmənin məhv edilən döyüş texnikasının sayını açıqlayıb



Azərbaycan Respublikasının Müdafiə Nazirliyi sentyabrın 30-da saat 17:30-dək düşmənin məhv edilən döyüş texnikasının sayını açıqlayıb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Ordusunun bölmələri tərəfindən saat 17:30-dək düşmənin 2 ədəd “OSA-AKM” zenit-raket kompleksinin döyüş maşını, 1 ədəd BM-21 “Uraqan” yaylım atəşli reaktiv sistemi, 4 ədəd BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi məhv edilib. Bundan başqa, Ermənistan silahlı qüvvələrinin bölmələrinin 4 ədəd “D-20” haubitsa-topu, 16 tankı, 1 ədəd piyadanın döyüş maşını və şəxsi heyətlə birlikdə 2 yük maşını məhv edilərək sıradan çıxarılıb.

## XİN: Ermənistan muzdluları gətirməklə terrorçuluğu nümayiş etdirir



Rusiya XİN-in İnformasiya və Mətbuat Departamentinin münaqişə zonasına xarici muzdluların gətirilməsi ilə əlaqədar verdiyi açıqlamaya münasibətdə bildirmək istərdik ki, Ermənistanın bu kimi vasitələrdən geniş istifadə etməsi ilə bağlı narahatlığımız tərəfimizdən dəfələrlə ifadə olunub. AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin mətbuat açıqlamasında deyilir.

“Ermənistan Azərbaycanın Dağlıq Qarabağ və ətraf bölgələrinin işğalı zamanı, eləcə də ölkəmizə qarşı törətdiyi növbəti təcavüz aktlarında xarici ölkələrdən, xüsusilə də Yaxın Şərq bölgəsindən terrorçu və muzdluları cəlb edib.

Ermənistanın son aylar ərzində ölkəmizin işğal olunmuş ərazilərində həyata keçirdiyi qanunsuz məskunlaşdırma siyasəti çərçivəsində xarici muzdluları bu əraziyə gətirməsi və “könüllü döyüşçü dəstələri” adı altında öz ordusuna cəlb edərək Azərbaycana qarşı hücum əməliyyatlarında istifadə etməsi terrorçuluğun Ermənistanın dövlət siyasətinin tərkib hissəsi olduğunu növbəti dəfə nümayiş etdirir”, - deyə açıqlamada bildirilib.

# “Beynəlxalq ictimaiyyət Ermənistanın terrorçu qüvvələri Azərbaycana qarşı istifadə etməsinə adekvat reaksiya verməlidir”

***A**zərbaycan Prezidenti İlham Əliyevin “Rossiya-1” telekanalına müsahibəsində və BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlar seqmentində çıxışı zamanı da qeyd etdiyi kimi, Ermənistan tərəfindən Yaxın Şərq ölkələrindən Azərbaycanın işğal olunmuş ərazilərinə terrorçuların və muzdluların gətirilməsi prosesi var.*



AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

H.Hacıyev bildirib ki, uzun müddət ərzində Ermənistan tərəfindən bu siyasət həyata keçirilir: “Həmçinin bu terrorçular Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərinə ailələri ilə birlikdə gətirilərək onların məskunlaşdırılması həyata keçirilir. Həmin şəxslər Azərbaycana qarşı hərbi əməliyyatlarda da iştirak edirlər. Bu da Azərbaycanın ciddi narahatlığına səbəb olan məsələdir. Bununla bərabər, 1990-cı illərdə Ermənistan-Azərbaycan münaqişəsinin aktiv fazasında da muzdlulardan, terrorçulardan geniş şəkildə istifadə edilib. Burada ASALA terror təşkilatını, ARABO, ARAMO kimi terror qruplaşmalarını qeyd etmək lazımdır. Elə bu günlərdə Yaxın Şərq ölkələrindən erməni əsilli bir şəxs ASALA terror təşkilatının təmsilçisi olaraq Azərbaycanın işğal olunmuş ərazilərində Azərbaycana qarşı vuruşduğunu özü etiraf edir. Azərbaycanın da narahatlıqları var və beynəlxalq ictimaiyyət tərəfindən də Ermənistanın bu kimi terrorçu qüvvələri Azərbaycana qarşı istifadə etməsinə adekvat reaksiya verməlidir”.

# Bəhruz Quliyev: “Azərbaycan öz halal torpaqlarından imtina etməyəcək”

***“Ötən gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmiz üçün önəmli və taleyüklü bir dövrdə Rusiyanın “Rossiya l” telekanalına müsahibə verərək sentyabrın 27-də Ermənistanın təxribatı nəticəsində başlanmış müharibə haqqında həqiqətləri böyük auditoriyaya çatdırdı.***



Prezident İlham Əliyev Rusiya ictimaiyyətini Ermənistanın təxribatları, işğalçılıq və təcavüz siyasəti haqqında məlumatlandırdı”. Bu fikirləri Trend-ə açıqlamasında SƏS Media Qrupunun rəhbəri, siyasi ekspert Bəhruz Quliyev deyib.

Media Qrupunun rəhbərinin sözlərinə görə, Prezident İlham Əliyev “Rossiya l” telekanalına müsahibəsi zamanı səlis və mükəmməl bir dildə faktlara əsaslanaraq Nikol Paşinyanın yalanlarını ifşa etməsi ilə iki ölkə rəhbərinin müqayisəyə gəlmədiyini sübuta yetirdi: “Paşinyan bir daha göstərdi ki, mitinqlərdə çıxış etməklə belə səviyyəli tədbirlərdə çıxış etmək, dövlət idarəçiliyi tamamilə ayrı-ayrı anlayışlardır. Azərbaycan Prezidentinin Ermənistan baş nazirini növbəti dəfə siyasi iflasa uğratması faktını hətta Ermənistan mətbuatı və ictimaiyyəti də etiraf etmək məcburiyyətindədir. Bütün bunlar bir daha sübut etdi ki, Paşinyan telekanala müsahibəsi zamanı Azərbaycan Prezidentinin tarixi həqiqətə əsaslanan tutarlı faktları qarşısında növbəti dəfə mat vəziyyətinə düşdü və özünü biabır etdi.

Prezident İlham Əliyev müsahibəsi zamanı bir daha Ermənistanın dinc əhaliyə qarşı müharibə apardığını, Ermənistan ordusunun əsas hədəfinin yaşayış məntəqələri və mülki əhali olduğunu faktlarla göstərdi. Bu mənada, hesab edirəm ki, Azərbaycanla sərhəddə təxribat Paşinyan hakimiyyətinə xarici düşmən mövzusunu qabartmağa və öz səriştəsiz idarəçiliyinin yaratdığı problemləri gündəmdən çıxartmağa hesablanıb. Paşinyanın belə təxribatlarla problemi aradan qaldırmaq cəhdlərinin hər hansı nəticə verəcəyi isə mümkünsüz görünür. Azərbaycan Ordusunun həyata keçirdiyi əks-tədbirlər nəticəsində düşmən geri otuzdurulub, onun canlı qüvvəsinə və hərbi texnikasına ciddi zərər yetirilib. O da yaddan çıxarılmamalıdır ki, Azərbaycan Ordusunun əks-tədbirləri adekvat xarakter daşıyıb. Azərbaycan tərəfi Ermənistanın təxribatlarına qətiyyətli cavab verib, növbəti təxribat cəhdlərinin qarşısı qətiyyətlə alınıb”.

B.Quliyev əlavə edib ki, Paşinyanın işğal altındakı torpaqlara mütəmadi səfərləri, “Qarabağ Ermənistandır və nöqtə” və “Qarabağ xalqı özü danışıqlarda tərəf olmalıdır” kimi bir-birini təkzib edən bəyanatları Nikolun bölgəni müharibəyə sürükləməsinin ilkin siqnalları idi: “Ermənistan sülhə getmək istəmir, həmsədrlər işğalçını sülhə məcbur etmək istəmir, Azərbaycan isə təbii ki, öz halal torpaqlarından imtina etməyəcək. Belə olan halda münaqişənin sülh yolu ilə həll vasitəsi tükənmiş hesab olunur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də münaqişənin Minsk qrupu çərçivəsində həllinin artıq mümkünsüz olduğunu açıq şəkildə bildirib. Ümumiyyətlə, müasir dünyada artıq münaqişələrin beynəlxalq təşkilatlar çərçivəsində həlli imkanları getdikcə tükənməkdədir. Soyuq müharibə dövründəki güc balansının təzahürü olan beynəlxalq və regional təşkilatlar, o cümlədən ATƏT və onun Minsk Qrupu problemi həll etmək iqtidarında deyil. Beynəlxalq təşkilatlar elə onu təsis edən böyük dövlətlərin özlərinin maraqlarının əsirinə çevrilib”.

Siyasi ekspert bildirib ki, etnik təmizləmə nəticəsində tarixi torpaqlarından zorla çıxarılmış vətəndaşlarımızın geri qayıtmalarını təmin etmək üçün kifayət qədər imkanlarımız var: “Azərbaycan dövlətinin bu məqsədləri həyata keçirmək üçün iqtisadi, siyasi, eləcə də hərbi gücü yetərincədir. Eyni zamanda, bu məsələdə Azərbaycan xalqının yekdil iradəsi var. Bu gün siyasi baxışlarından, tutduğu vəzifədən, mövqeyindən asılı olmayaraq hamının bir fikri var - bölgədə sülh, əmin-amanlıq bərqərar olunmalı, separatizmə son qoyulmalıdır. Ali Baş Komandanın atacağı addımdan asılı olaraq hər bir vətəndaşımız üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməyə hazırdır. Azərbaycan xalqı “hər şey cəbhə üçün, hər şey vətən üçün” deyərək bölgədə sülhün, əmin-amanlığın təmin olunmasında orduya hər bir cəhətdən yardım etməyə hazırdır”.

# Erməni təxribatı nəticəsində 14 mülki şəxs ölüb, 46 nəfər xəsarət alıb

***M**əlum olduğu kimi, təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirir. Baş Prokurorluğun mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, düşmənin silahlı qüvvələrinin dinc Azərbaycan əhalisinin sıx yaşadığı əraziləri növbəti dəfə ağır artilleriyadan atəşə tutması nəticəsində hazırkı vaxtadək ümumilikdə mülki əhalidən 46 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdirilib, 14 nəfər şəxs isə həlak olub.*



Bundan başqa, Ermənistan hərbi birləşmələri əhalinin kompakt olduğu məntəqələri - rayon və kənd mərkəzlərini, mülki infrastruktur obyektlərini - yaşayış evlərini, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri ağır artilleriya qurğularından intensiv atəşə tutmaqda davam edir.

İşğalçı ölkənin silahlı qüvvələrinin mülki infrastruktur obyektləri atəşə tutması nəticəsində 116 yaşayış evinə, həmçinin, 26 mülki obyektə, o cümlədən Tərtər şəhərində Xalçatoxuculuq fabrikinə, Ağdam rayonu, Təzəkənd kəndində inşa edilmiş modul tipli məktəb binasına, Tərtər rayonu, Şıxarx qəsəbəsi 1 saylı tam orta məktəbin binasına, Tərtər şəhəri 2 saylı məktəb-liseyin binasına, Tərtər rayonunun Azad Qaraqoyunlu kəndi ərazisində yerləşən “MKT İstehsal Kommersiya” MMC-nin Pambıq zavoduna, Tərtər rayonu Qapanlı kəndində tibb məntəqəsinə külli miqdarda ziyan vurulmuş, eləcə də dinc sakinlərə məxsus nəqliyyat vasitələri yararsız vəziyyətə düşmüş, çoxsaylı xırda və iribuynuzlu heyvanlar tələf olub.

Hazırda prokurorluq əməkdaşları tərəfindən döyüş şəraitində mümkün olan bütün istintaq-əməliyyat tədbirləri həyata keçirilir. Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən ordumuza və dinc əhaliyə qarşı cinayətlər törətmiş təxribatçı erməni birləşmələrinin hərbi qulluqçularının beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilmələri üçün bütün zəruri tədbirlərin görülməsi təmin ediləcək.

# Amerikalı jurnalist Paşinyanı ifşa etdi

**A**merikalı jurnalist Coşua Kuçera Ermənistanın baş naziri Nikol Paşinyanın “Azərbaycan Silahlıq Qüvvələrində suriyalı döyüşçülərin mövcudluğu” barədə yalanını ifşa edib. SİA xəbər verir ki, bu barədə jurnalist “Twitter” səhifəsində yazıb.

C.Kuçera N.Paşinyanın suriyalı döyüşçülərin guya Azərbaycanda şəriət qaydaları tətbiq etməsi barədə fikrini xatırladaraq həmin fikirlərin “Suriyalı döyüşçülər qarışıqlıq yaradır” adlı məqalədən götürüldüyünü deyib və öz növbəsində bu məqalənin saxta olduğunu bildirib.



# Prezidentə yazırlar: Azərbaycan vətəndaşları bir nəfər kimi Sizin, dövlətimizin, ordumuzun yanındadır!

***Azərbaycan Ordusunun Ermənistan silahlı birləşmələrinə qarşı həyata keçirdiyi uğurlu əks-hücum əməliyyatları vətəndaşlarımızda qələbə əzmini, ruh yüksəkliyini daha da artırıb. Bu, Azərbaycan vətəndaşlarının Prezident, Ali Baş Komandan İlham Əliyevə göndərdiyi təbrik və təşəkkür məktublarından da aydın görünür.***



Qeyd edək ki, Azərbaycan vətəndaşlarından əlavə bir sıra xarici ölkələrin vətəndaşları da dövlətimizin başçısına məktublar ünvanlayırlar. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir.

İsmayıllı rayonunun müharibə, əmək və silahlı qüvvələr veteranları adından Ələləm Babayev yazır: "Möhtərəm Prezident, cənab Ali Baş Komandan, sentyabrın 27-də faşist Ermənistanın növbəti təxribatından və onların bütün cəbhəboyu yaşayış məntəqələrimizi artilleriya qurğularından atəşə tutmasından dərhal sonra şanlı ordumuzun əks hücumu nəticəsində düşmənə layiqli cavab verilmişdir. Ordumuz gün ərzində uzun illər işğal altında olan yeddi kəndimizi və ən strateji yüksəklik olan Murovdağ silsiləsini mənfur düşməndən azad etmişdir. Bu qələbələr bizi çox sevindirir. Biz çox inanırıq ki, Sizin rəhbərliyinizlə şanlı ordumuz işğal altında olan bütün torpaqlarımızı düşmən tapdağından azad edəcək və zəfər çalacaq. Çünki bizim işimiz haqq işidir".

Bakı şəhərinin sakini Arif Əliyev: "Hörmətli cənab Prezident, Ermənistan silahlı qüvvələrinin hərbi təxribatına cavab olaraq Azərbaycan Ordusunun başladığı uğurlu əks-hücum əməliyyatını qətiyyətlə dəstəkləyirik. Ordumuzun uğurları hər bir azərbaycanlı kimi, bizə də sevinc və sonsuz qürur hissi yaşadır. Qarabağ bizim doğma dədə-baba torpağımızdır. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır və bu gün bizim mübarizəmiz haqq mübarizəsidir. Azərbaycan vətəndaşları bir nəfər kimi Sizin, dövlətimizin, Ordumuzun yanındadır. Biz əminik ki, Azərbaycan Ordusu Sizin Ali Baş Komandanlığınızla düşmən üzərində layiqli zəfər çalacaq, Azərbaycan bayrağı əzəli torpağımız Qarabağda dalğalanacaq. Otuz ilə yaxın doğma torpaqlarından didərgin düşən soydaşlarımız tezliklə öz yurdlarına qayıda biləcəklər. Bu haqq yolunda zəfər çalacağımıza inanırıq və bu yolda Sizə, ordumuza yeni uğurlar diləyirik".

Bakı şəhərinin daha bir sakini Ağayar Məmmədov: "Hörmətli cənab Prezident, Sizin və çox hörmətli Mehriban xanımın Azərbaycan xalqına göstərdiyiniz diqqət və qayğı bizim gələcəyə ümidimizi daha da artırır. Cənab Ali Baş Komandan, işğal olunmuş torpaqlarımızın azad edilməsi üçün ordumuza verdiyiniz tapşırıq nəticəsində Silahlı Qüvvələrimizin Ermənistan ordusunu darmadağın etməsi hər birimizdə tezliklə böyük qələbəyə qovuşacağımıza əminlik yaradıb. İnanırıq ki, Sizin müdrikliyiniz və qayğıkeşliyiniz sayəsində az itki ilə qələbə qazanacağıq. Allah Sizi və ailənizi qorusun".

Şirvan şəhərinin sakini Leyla İbadovanın məktubunda deyilir: "Hörmətli cənab Prezident, Ali Baş Komandan, mən bir vətəndaş, bir müəllim olaraq son zamanlarda baş verən hadisələrlə bağlı atdığınız addımları bəyəndiyimizi və Sizi dəstəklədiyimizi bildirirəm. Biz başa düşürük ki, Siz Azərbaycan xalqının 30 illik nisgilinə son qoymaq üçün, şəhidlərimizin məzarlarında rahat uyuması, torpaqlarımızın işğaldan azad olunması və gələcək nəsillərin xoşbəxtliyi üçün bu addımı atmış, ölkədə hərbi vəziyyət elan edərək əks-hücum əmrini vermisiniz. Şərəfli mübarizəmizdə sözsüz ki, şəhidlərimiz də olacaq. Ancaq biz bilirik ki, azadlıq bəxş edilmir, qan bahasına alınır. Odur ki, düşmənin amansızlığı, müharibənin dəhşəti Azərbaycan xalqını qorxuda bilməz. Keçən gün ordumuzun apardığı hərbi əməliyyatlar nəticəsində Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Aşağı Əbdürrəhmanlı, Yuxarı Əbdürrəhmanlı, kənd Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Böyük Mərcanlı kəndlərinin azad olunması və Murov yüksəkliyinin ordumuzun nəzarəti altına keçməsi xəbəri vətəndaşlar içərisində çox böyük sevinc və nikbinlik yaradıb. İnanırıq ki, Sizin apardığınız düzgün siyasətiniz və Azərbaycan Ordusunun əzmi, şücaəti sayəsində düşmən məhv ediləcək, torpaqlarımız bütünlüklə azad olunacaq, şəhid analarının yanan qəlbinə su səpiləcək. Cənab Ali Baş Komandan, əmin olun ki, bu çətin və şərəfli işdə Azərbaycan xalqı yekdilliklə Sizin yanınızdadır".

Qobustan şəhərindən Rəssam Azadə yazır: "Hörmətli cənab Ali Baş Komandan, bu gün hamının düşüncəsi bütünlüklə Azərbaycan əsgərinin döyüş əzminə, qələbə ruhuna köklənib. Bu köklənmə vətənsevərlikdir, Azərbaycan əsgərinin gücünə, qüdrətinə inamdır, Ali Baş Komandanın əmri ilə döyüşən hərbi qulluqçularımıza vətəndaş xeyirduasıdır. Yurdumuzun hər qarışı mənim üçün əziz və doğmadır. Vətənə xidmət etmək, onu qorumaq bizim müqəddəs və şərəfli borcumuzdur. Bu borcu ləyaqətlə yerinə yetirdiyimə görə qürurluyam. Xalqımız qəhrəman, cəsur xalqdır. Zaman-zaman Vətən oğulları yadellilərlə mübarizələrdə böyük igidlik və qəhrəmanlıqlar göstəriblər. Qanları və canları bahasına qoynunda dünyaya göz açıb yaşadıqları torpaqları qoruyublar. Bu gün bizim damarlarımızdan döyüşlərdə böyük qəhrəmanlıq və hünər göstərmiş babalarımızın qanı axır. Biz də onların qəhrəmanlıqlarını təkrar edərək, erməni işğalçılarını torpaqlarımızdan təmizləyəcəyik. Cənab Prezident, Ulu Tanrı bu haqq yolunda köməyiniz olsun".

Saatlı şəhərindən Sevinc Əhədova: "Hörmətli cənab Prezident, Siz zamanın sınağından ləyaqətlə çıxmış bir lidersiniz. Bu sınaqlarda xalq Sizin arxanızda, Siz də xalqın önündə olmusunuz. Haqq mübarizəmizdə də qəsbkar, xəyanətkar erməni faşistləri zaman-zaman Sizin və ordumuzun layiqli cavablarını alıblar. Cənab Prezident, inanırıq ki, Sizin komandanlığınızla torpaqlarımızı mənfur düşməndən azad edəcək, bu mübarizədə qalib gələcəyik. Qadın olmağıma baxmayaraq, bu yolda Sizin əmrinizi gözləyirəm".

Bakı sakini Tuncay Şamilzadə: "Hörmətli cənab Prezident, Azərbaycan xalqı daim Sizinlə fəxr edib, edir və edəcək də. Mən bu məktubu Sizə göz yaşları içində yazıram. Allah Sizi qorusun. Siz tək deyilsiniz, son damla qanımıza qədər Sizinləyik. Var olun! Yaxşı ki, Sizin kimi Ali Baş Komandanımız, Prezidentimiz var. Allah Sizi bizə çox görməsin".

Bakının Xətai rayonunun sakini Aysel Hasanova: "Cənab Prezident, hər bir Azərbaycan vətəndaşı kimi, mən də Sizə güvənir, Sizə inanıram. Sizin siyasətinizi, ölkəmizin gələcəyi, vətəndaşlarımızın rifahı üçün qəbul etdiyiniz qərarları dəstəkləyirəm. İnşallah, işğal altında olan torpaqlarımız tezliklə azad olunacaq! Sizə güvənir, sizə arxalanırıq. Allah sizə və Vətənimizə kömək olsun".

Binəqədi rayonundan Şərqiyyə Salmanova: "Cənab Prezident, Sizi və bütün Azərbaycan xalqını, azərbaycansevərləri təbrik edirəm. Ordumuzun şücaəti, Sizin uğurlu rəhbərliyiniz bizi uğura aparır. İşğal altındakı bütün torpaqlarımızın tezliklə azad olunması xəbərini verməyinizi Uca Allahdan arzu edirəm. Mən bir Azərbaycan övladı olaraq daim Sizi dəstəkləyir, uğurlarınızın, uğurlarımızın davamlı olmasını arzu edirəm. Gözün aydın, Azərbaycan! Qarabağ Azərbaycandır!".

Şirvan şəhərinin sakini Leyla İbadovanın məktubunda deyilir: "Hörmətli cənab Prezident, Ali Baş Komandan, mən bir vətəndaş, bir müəllim olaraq son zamanlarda baş verən hadisələrlə bağlı atdığınız addımları bəyəndiyimizi və Sizi dəstəklədiyimizi bildirirəm. Biz başa düşürük ki, Siz Azərbaycan xalqının 30 illik nisgilinə son qoymaq üçün, şəhidlərimizin məzarlarında rahat uyuması, torpaqlarımızın işğaldan azad olunması və gələcək nəsillərin xoşbəxtliyi üçün bu addımı atmış, ölkədə hərbi vəziyyət elan edərək əks-hücum əmrini vermisiniz. Şərəfli mübarizəmizdə sözsüz ki, şəhidlərimiz də olacaq. Ancaq biz bilirik ki, azadlıq bəxş edilmir, qan bahasına alınır. Odur ki, düşmənin amansızlığı, müharibənin dəhşəti Azərbaycan xalqını qorxuda bilməz. Keçən gün ordumuzun apardığı hərbi əməliyyatlar nəticəsində Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Aşağı Əbdürrəhmanlı, Yuxarı Əbdürrəhmanlı, kənd Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Böyük Mərcanlı kəndlərinin azad olunması və Murov yüksəkliyinin ordumuzun nəzarəti altına keçməsi xəbəri vətəndaşlar içərisində çox böyük sevinc və nikbinlik yaradıb.

Komandan, biz Sizə inanırıq, Sizinlə birlikdəyik. Allah Sizi, xalqımızı və Ordumuzu qorusun".

Qubanın Amsar kəndindən Elmin Sərdarlı: "Cənab Ali Baş komandan İlham Əliyev, Sizinlə qürur duyuram. Azərbaycan xalqı Sizinlə qürur duyur, Sizin düzgün siyasətinizi alqışlayır. Mən gələcəyin jurnalisti kimi söz verir və and içirəm ki, Azərbaycanı xarici ölkələrdə tanıdacağam. Qürurla deyəcəyəm ki, "Mən fəxr edirəm ki, güclü, vüqarlı, şanlı Vətənim Azərbaycanın övladıyam. Biz birlikdə güclüyük! Qarabağ Azərbaycandır!".

Bakının Binəqədi rayonundan Gülnarə Şəmmədova: "Cənab Prezidentimiz İlham Əliyev, əvvəla, hər zaman xalqımızın yanında olduğunuz üçün Sizə sonsuz dərin təşəkkürümü bildirirəm. Bu gün isə Vətənimizin ərazi bütövlüyü uğrunda mübarizə apardığınız üçün Sizə minnətdaram. Artıq üç gündür ki, böyük addımlarla zəfərə doğru gedirik. Əminik ki, Azərbaycan Ordusu daha da irəli gedəcək. Çünki artıq gücümüzlə dünyaya səs salmışıq. İnşallah, Qələbə bizimdir, Qarabağ bizimdir. Allahdan Sizə səbir, dözüm, daha təmkinli olmağı diləyirəm. Bütün Azərbaycan xalqına, xüsusən də bu gün səngərdə vuruşan igidlərimizə Ulu Tanrıdan cansağlığı, möhkəm olmağı, içlərindəki Vətən sevgisinin daha da artmasını diləyirəm. Cənab Prezident, biz Sizinləyik. Hər bir vətəndaş əmindir ki, bizim zəfərə sayılı günlərimiz qalıb. Çünki bizim güclü ordumuz, qorxmaz millətimiz var. Qarabağ Azərbaycandır, Qarabağ bizimdir!".

İmişlinin Mirili kəndindən Aqşin Mürsəlov: "Hörmətli cənab Prezident, bu gün Azərbaycanda xalqı, Azərbaycan Ordusu vahid məqsəd, ümummilli hədəflər uğrunda mübarizədə Sizin ətrafınızda sıx birləşib. Bu birlik sayəsində Azərbaycan Ordusu mənfur düşmən üzərində qətiyyətli və tam qələbə ilə zəfər çalacaq. Bu haqq yolunda canımızla, qanımızla əmrinizdəyik. Allah Sizi qorusun, Ordumuza kömək olsun. Qələbə xalqımızın haqqıdır".

Bakının Yasamal rayonundan Samir İsmayılov: "Hörmətli cənab Prezident, möhtərəm Ali Baş Komandan, Sizin qətiyyətiniz cəbhədə qazanılan və qazanılacaq zəfərlərin təminatıdır. Vətənin müdafiəsi naminə gördüyünüz işlərdə xalqımızın hər bir üzvü Sizin arxanızdadır. Vətənin hər bir qarışından ötrü canımızdan keçməyə belə hazırıq. Sizinlə qürur duyuram. Bu günləri bizə nəsib edən Allahdan Sizə cansağlığı, başladığınız işi zəfərlə başa çatdırmağı arzulayıram. Mən fəxr edirəm ki, azərbaycanlıyam!".

Binəqədi rayonundan dosent Nigar Zeynalova yazır: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, ilk növbədə, bizlərə sevinc dolu günlər yaşatdığınız üçün çoxsaylı təhsil işçiləri, bütün Azərbaycan xalqı adından Sizə dərin təşəkkürümü bildirirəm. Rəşadətli Ordumuzun hazırkı zəfər yürüşü Sizin müdrik siyasətinizin, gərgin əməyinizin məntiqi nəticəsidir. Sizin adınız Azərbaycanın görkəmli sərkərdələri sırasına qızıl hərflərlə yazılacaq. Hər zaman olduğu kimi, indi də Sizə güvənir, Sizinlə qürur duyuruq. Bu çətin günlərdə ordumuza əlimizdən gələn köməyi etmək hər bir azərbaycanlının vətəndaşlıq borcudur. Bu gün Azərbaycan Sizin sayənizdə güclü, müasir silahsursatla təchiz olunmuş orduya malikdir. İnşallah, azad edilən ərazilərdə böyük quruculuq işlərinə başlanacaqdır. Biz həmin işlərin də öhdəsindən birlikdə gələcək, Qarabağı çiçəkləndirəcəyik".

Tərtər rayonunun Bəyimsarov kəndindən Anar Rüstəmov: "Hörmətli Prezident, cənab Ali baş Komandan, Sizin rəhbərliyinizlə ordumuz düşmən üzərində üstünlük qazanmaqda davam edir. Biz əminik ki, ordumuz tezliklə işğal altında olan torpaqlarımızı işğalçılardan təmizləyəcək və xalqımız Qarabağda, Şuşada öz milli bayramlarını qeyd edəcək. Cənab Ali Baş Komandan, qəhrəman Tərtər gənci olaraq hər an döyüşə qatılmağa hazıram".

Bakının Nərimanov rayonundan Elnur Qurbanov: "Hörmətli cənab Prezident, Sizin hər bir qərarınız xalqımızın gələcəyi, firavan həyatı, xoş günləri üçün qəbul edilir. Koronavirus pandemiyasına qarşı görülən tədbirlər Azərbaycanı bu bəladan ən az itkilərlə qurtulan ölkələr siyahısına saldı. Buna görə də xalqımız qəbul etdiyiniz hər bir qərarı alqışlayır. Cənab Ali Baş Komandan, Təhlükəsizlik Şurasının son iclasındakı çıxışınızı dinləyərkən ürəyim dağa döndü, qələbə müjdələri gözlərimi sevinc göz yaşları ilə doldurdu. Cənab Prezident, cəbhəyə yollanmaq üçün əmrinizi səbirsizliklə gözləyirəm. Sizə sevgim, güvənim sonsuzdur. Bizə yaşatdığınız sevincə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Məktubumu hamımızın şüarına çevrilmiş sözlərinizlə bitirmək istəyirəm: "Qarabağ Azərbaycandır!".

Türkiyənin Ankara şəhərindən İbrahim Uluer dövlətimizin başçısına yazır: "Hörmətli cənab Prezident, mən Türkiyə vətəndaşı, şəhid qardaşı olaraq Azərbaycanı şərəfli mübarizəsində dəstəklədiyimi bildirirəm. Ölkəmin terrorla mübarizəsində iştirak etdiyimi, terrorla məşğul olan işğalçıların dinc əhalini rahat yaşamağa qoymadığını yaxşı bilirəm. Mənim üçün Türkiyə də, Azərbaycan da vətəndir. Vətənimin hər qarışı mənim üçün müqəddəsdir. Şanlı qələbənizin qazanılması üçün irəlilədiyiniz yolda Sizinlə birlikdə addımlamaq mənim üçün şərəf olardı. Can Azərbaycana uğurlar arzulayıram".

Ankara şəhərindən Caner Sarsılmaz: "Hörmətli cənab Prezident, Ermənistanın işğalı altında olan bir neçə kəndin düşməndən azad edilməsi münasibətilə Sizi təbrik edir, bu yolda şəhid olanlara görə başsağlığı verir, heç nəyin Azərbaycan xalqının əzmini qıra bilməyəcəyinə əmin olduğumuzu bildirirəm. Mən də Qələbə yolunda irəliləyən əsgərlərinizlə birlikdə addımlamağa, qardaşlarımla çiyin-çiyinə döyüşməyə istəyirəm və Azərbaycanın haqq işində son damla qanıma qədər mübarizə aparmağa hazıram".

Atakum şəhərindən İnan Güvən: "Hörmətli cənab Prezident, Ermənistanın işğalçı siyasətinə görə üzləşdiyiniz müharibə vəziyyətinə görə narahatlıq keçirsək də, Qələbənin mütləq Sizinlə olacağına inanırıq. Azərbaycana gələn bəla bizə də gəlmiş sayılır. Buna görə də hər bir türk bütün imkanları ilə Sizinlə birlikdə olduğunu bildirir. Mən də onlardan biriyəm. Türkiyə-Azərbaycan qardaşlığı əbədi davam edəcəkdir. Sizə dəyən zərərin bizə dəydiyini düşünərək, hər zaman döyüşə hazırıq. Biz də Sizin əmrinizdəyik".

Malatya şəhərindən Öterkuş Mustafa: "Hörmətli cənab Prezident, mən könüllü olaraq cəbhədəki azərbaycanlı qardaşlarımla birlikdə vuruşmağa hazıram. Sizin yolunuz haqq yoludur və bu yolda olmaq hər bir türk üçün böyük şərəfdir. Sizə Qələbə arzulayıram, cənab Prezident!".

Türkiyə Memur-Sen Həmkarlar Təşkilatının sədri Ali Yalçın yazır: "Hörmətli cənab Prezident, tarixi keçmişdən bu günədək daim Ermənistanın təcavüzkarlığının Azərbaycan dövlətinə və xalqına təhlükə törətdiyini görürük. Erməni terroruna və işğalına qarşı mübarizədə irəli sürdüyünüz qətiyyət şübhəsiz ki, təqdirəlayiqdir. Başda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan olmaqla türk xalqı, o cümlədən rəhbərlik etdiyim qurum daim Azərbaycanın haqlı mövqeyini müdafiə edib. Azərbaycanın ərazi bütövlüyünü pozaraq işğalçılıq siyasətini davam etdirən Ermənistanın iç üzünü göstərmək, beynəlxalq qurumlara, təşkilatlara həqiqəti çatdırmaq üçün səylərimizi əsirgəmədik. Ortaq tariximiz, ortaq inancımız və ortaq iradəmiz üzərində birlikdə qurduğumuz "bir millət, iki dövlət" konsepsiyası ilə ortaq varlığımız var. Azərbaycan müstəqilliyini qorumalı və yaşatmalı olan qardaş ölkədir. Allah bu mübarək səfərdə Sizə kömək olsun!".

Bursa şəhərindən Ramazan Mutlu: "Hörmətli cənab Prezident, Ermənilərin Azərbaycana qarşı təcavüzünü görüb sakit dayana bilmirik. Bizə də şərait yaradın, Qarabağ uğrunda biz də vuruşaq. Bu erməni cəlladları neçə illərdir türkə düşmən kəsilib. Artıq zamanı çatıb, onları Qarabağdan çıxarmalıyıq. Cənab Ali Baş Komandan, bir daha bildirmək istəyirəm ki, əmrinizi gözləyirəm. Qardaşlarımla bir cəbhədə olmaqdan böyük qürur duyardım".

Antalya şəhərindən Metin Fahri, Murat Ablak və Aşık Turan yazırlar: "Hörmətli cənab Prezident, biz bir millət, iki dövlətik. Biz türkük, qardaşıq, eyni kökdənik. Yola çıxmış olduğunuz bu uğurlu mübarizədə Rəbbim yardımçınız olsun. Canımızla, qanımızla azərbaycanlı qardaşlarımızın yanındayıq. Qulağımız səsdə, könlümüz yoldadır. Bir çağırış edin, yetər".

İstanbul şəhərindən Veli Yıldız: "Hörmətli cənab Prezident, əvvəla cəbhə bölgəsində baş verən döyüşlərdə şəhid olmuş qardaşlarımızın ailələrinə başsağlığı verir, yaralıların tezliklə sağlamlıqlarına qovuşmaları üçün dua edirik. Sizin üçün orada könüllü döyüşməyə hər zaman hazır olduğumu bilməyinizi istəyirəm. Bir canım deyil, min canım olsa, azərbaycanlı qardaşlarıma fəda edərəm. Azərbaycan-Türkiyə: İki dövlət, bir millət, bir ürək!".

Bursa şəhərindən Oğuz Aydın: "Hörmətli cənab Prezident, dost və qardaş ölkənin, can Azərbaycanın rəhbəri kimi Sizi salamlayır, məsuliyyətli fəaliyyətinizdə Sizə uğurlar arzulayıram. Son zamanlar ermənilərin ölkənizə və mülki vətəndaşlara qarşı təcavüzü bizi də hiddətləndirdi. İşğalçı və təcavüzkar ölkəyə qarşı mübarizənizdə Sizin, can Azərbaycanın yanındayıq. Dinimizə və türkçülüyə təhlükə yaradan nə varsa, mən son damla qanıma qədər onunla mübarizə aparmağa hazıram. Qarabağ Azərbaycanındır! Bu, belə olub və daim belə olacaq! Allah yar və yardımçınız olsun".

İzmir şəhərindən Fahri Emre Recber: "Hörmətli cənab Prezident, mən Türkiyə vətəndaşı olaraq hər bir azərbaycanlının qardaşıyam. Uzun illərdir Azərbaycan şirkətləri ilə əməkdaşlıq edirəm. Sizin torpaqlar mənim üçün də doğmadır. Hazırda erməni təcavüzünə qarşı mübarizənizi tam dəstəkləyir, hər an yanınızda olduğumu bildirirəm. Qılıncınız kəskin, qələbələriniz davamlı olsun!".

Adana şəhərindən İsmail Serkan Büyükoğlu və Erdi Bozkurt: "Hörmətli cənab Prezident, Azərbaycan və Türkiyə iki qardaş ölkə, tək millətdir. Qardaş və dost çətin gündə tanınar. Bu günlər Azərbaycan üçün çətin olmaqdan daha çox şərəflidir. Belə günlərdə Sizin yanınızda olmağa, canımız və qanımızla kömək etməyə hazırıq. Allah türkü qorusun! Bayraq enməz, Vətən bölünməz!".



# Milli Məclisin payız sessiyasının ilk iclası keçirilib

***Sentyabrın 30-da Milli Məclisin 2020-ci ilin payız sessiyasının açılışı olub. Milli Məclisin Sədri Sahibə Qafarova sessiyanı açıq elan etdi və dövlət himni səsləndirildi. Əvvəlcə Spiker payız sessiyasının başlanması münasibətilə deputatları təbrik etdi və parlamentin qarşıdakı fəaliyyətinin səmərəli olmasını arzuladı.***



Sonra Sahibə Qafarova Ermənistanın Azərbaycana təcavüzü nəticəsində cəbhə bölgəsində gərginləşən vəziyyətdən söz açdı. O qeyd etdi ki, bu gün Azərbaycanın zəfər salnaməsinə yeni tarixi səhifələr yazılır. Erməni silahlı qüvvələrinin hərbi təxribatının qarşısını almaq üçün Azərbaycan Ordusunun həyata keçirdiyi geniş miqyaslı əks-hücum əməliyyatı davam edir. Sentyabrın 27-dən bəri Azərbaycanın işğal altında olan bir sıra yaşayış məntəqələri azad edilmiş, strateji yüksəkliklər ordumuzun nəzarəti altına keçmişdir. Düşmənin canlı qüvvəsinə və hərbi texnikasına böyük ziyan vurulmuşdur. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin dediyi kimi, “Mən əminəm ki, bizim uğurlu əks-hücum əməliyyatımız işğala son qoyacaqdır! Ədalətsizliyə son qoyacaqdır! Otuz ilə yaxın davam edən işğala son qoyacaqdır! ...Dağlıq Qarabağ məsələsi bizim milli məsələmizdir. Onun həlli bizim tarixi vəzifəmizdir. Biz bunu elə şəkildə həll etməliyik ki, tarixi ədalət bərpa edilsin və Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun”.

Sonra Sədr düşmən təxribatı barəsində səhih məlumatların dünya ictimaiyyətinə çatdırılması, erməni faşizminin iç üzünü və çirkin mahiyyətini ifşa etmək üçün parlament diplomatiyasının imkanlarından geniş istifadə edildiyini vurğuladı. Milli Məclisin Sədri kimi son günlərdə 88 ölkənin parlamentinə və 11 beynəlxalq təşkilata 138 məktub göndərildiyini, Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop, Pakistan İslam Respublikası Senatının Sədri Məhəmməd Sadiq Sancrani, Qazaxıstan Respublikası Parlamenti Məclisinin Sədri Nurlan Niqmatulin, ATƏT-in Parlament Assambleyasının Sədri Georgi Tsereteli ilə şəxsən telefonla danışdığını, Türkiyənin TRT-Xəbər televiziya kanalına canlı yayımda müsahibə verdiyini açıqladı. Bütün bu məktub və danışıqlarda, müsahibələrdə erməni silahlı qüvvələri tərəfindən törədilən planlı təxribatın, mülki insanların və obyektlərin atəşə tutulmasının beynəlxalq hüquqa zidd, Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təcavüzü və güc tətbiqi olduğunu bildirdiyini diqqətə çatdırdı.

Parlamentin sədri çıxışında qeyd etdi ki, Türkiyə Böyük Millət Məclisində təmsil olunan 4 siyasi partiya birgə bəyanat verərək, Ermənistanın Azərbaycana qarşı hərbi hücumlarını pisləyib. Bununla əlaqədar olaraq Mustafa Şentopa, həmçinin İtaliya və Almaniya parlamentlərində fəaliyyət göstərən Azərbaycanla dostluq qruplarının üzvlərinə xalqımızın haqq işini dəstəklədiklərinə görə məktub göndərilib və Azərbaycan parlamenti adından minnətdarlıq ifadə olunub.

Sahibə Qafarova çıxışının sonunda bildirdi ki, bu gün bütün Azərbaycan xalqı öz dövlətinin yanındadır. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda bərqərar olmuş sərištəli və məsuliyyətli idarəçilik sistemi, iqtidarla xalq arasında mövcud olan sarsılmaz birlik Dağlıq Qarabağ məsələsinin birdəfəlik həllini təmin edəcək.

Sonra Spiker 6-cı çağırış Milli Məclisin ilk sessiyalarının yekunlarına dair hesabatı təqdim etdi. Qeyd olundu ki, ötən dövrdə parlament öz fəaliyyətini Prezident İlham Əliyevin martın 10-da parlamentin birinci iclasında proqram xarakterli nitqində verdiyi tövsiyələrin yerinə yetirilməsi istiqamətində qurmuş və önəmli nəticələr əldə etmişdir. 2020-ci ilin yaz və növbədənkənar sessiyalarında parlamentin 23 iclası keçirilmiş, 164 qanun və qərar, o cümlədən 2 Konstitusiya Qanunu qəbul edilmişdir. Milli Məclis ölkənin ictimai-siyasi və iqtisadi həyatında baş verən bütün mühüm məsələlərə öz münasibətini bildirmişdir.

Sahibə Qafarova onu da vurğuladı ki, sessiyalararası dövrdə - iyulun 7-də Prezident Administrasiyasının şöbə müdiri Ədalət Vəliyevin iştirakı ilə Milli Məclisdə təmsil olunan siyasi partiyaların sədrləri və nümayəndələri ilə “Azərbaycanda yeni siyasi konfiqurasiya: pandemiya dövrü və yeni çağırışlar” mövzusuna həsr edilən videokonfrans formatında görüş keçirilib. O, siyasi dialoq, milli dövlətçilik məsələləri ətrafında əməkdaşlıq mühitinin möhkəmlənməsi, Azərbaycanda siyasi münasibətlərin sağlam zəmində qurulması baxımından görüşün əhəmiyyətini vurğuladı.

Parlamentin sədri daha sonra elektron parlament quruculuğu çərçivəsində görülən işlərdən danışdı, Milli Məclisin arxivində saxlanan bütün sənədlərin elektron formata keçirildiyini, televiziya və fotoarxivlərin rəqəmsal sistemə salındığını bildirdi. Sədr bildirdi ki, Milli Məclisin fəaliyyətini izləyən jurnalistlər üçün bütün lazımi avadanlıqla təmin olunmuş otaqlar ayrılıb. Yeni fotostudiya yaradılıb, brifinqlərin keçirilməsi və millət vəkillərinin müsahibələrinin verilməsi üçün müasir standartlara uyğun otaq hazırlanıb. Milli Məclisin fəaliyyətinin işıqlandırılması üçün İctimai televiziyada həftədə bir dəfə efirə gedəcək, 45 dəqiqəlik veriliş formatı müəyyənləşdirilib.

Sonra Sahibə Qafarova parlament Aparatında və İşlər İdarəsində aşkara çıxarılan çatışmazlıqların aradan qaldırılmasından və tətbiq edilən yeniliklərdən də geniş söhbət açdı.

Sonra gündəlikdəki məsələlərin müzakirəsinə başlanıldı. Sahibə Qafarova bildirdi ki, gündəliyə 22 məsələ daxil edilib. Əvvəlcə Milli Məclisin 2020-ci ilin payız sessiyası üçün qanunvericilik işləri planı müzakirə edildi. Milli Məclisin komitə sədrləri Musa Quliyev, Zahid Oruc, deputatlardan Qüdrət Həsənquliyev və Cavid Osmanov işlər planı ilə bağlı təkliflərini bildirdilər. 14 bənddən ibarət sənəd səsə qoyularaq məqbul hesab edildi. Gündəliyin ikinci məsələsi olan - deputat Eldar Quliyevin Milli Məclisin Hesablayıcı komissiyasının üzvü seçilməsi haqqında qərar layihəsi də səsvermə yolu ilə təsdiqləndi.

Sahibə Qafarovanın təqdimatından sonra “Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında” Milli Məclisin Qərarında dəyişiklik edilməsi barədə qərar layihəsi də səsə qoyularaq qəbul edildi.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili “Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin əqli mülkiyyət obyektlərinə hüquqlarının qorunması sahəsində gömrük orqanlarının qarşılıqlı fəaliyyəti haqqında” Sazişin təsdiq edilməsi barədə qanun layihəsini təqdim etdi. Gömrük orqanları arasında yeni çağırışları özündə ehtiva edən, əqli mülkiyyət obyektlərində əməkdaşlığın inkişafına xidmət edən sənəd səsə qoyularaq qəbul edildi.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov “Azərbaycan Respublikasının Kuba Respublikasında (Havana şəhərində) Səfirliyinin təsis edilməsi haqqında” sənədi şərh etdi. Komitə sədri Azərbaycanı hər zaman özünə dost hesab edən bir ölkədə - Kubada səfirliyin açılmasının məntiqli bir qərar olduğunu diqqətə çatdırdı və koronavirus pandemiyası dövründə Kuba həkimlərinin ölkəmizə təmənnasız dost yardımını əsirgəmədiklərini dilə gətirdi. Millət vəkilləri Sabir Rüstəmxanlı və Fazil Ağamalının fikirləri dinlənildikdən sonra sənəd səsə qoyularaq təsdiqləndi.

Əmək və sosial siyasət komitəsinin sədr müavini Məlahət İbrahimqızı Əmək Məcəlləsində, “Sahibkarlıq fəaliyyəti haqqında”, “Dövlət qulluğu haqqında”, “İşsizlikdən sığorta haqqında” və “Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında” qanunlarda dəyişiklik edilməsi barədə sənədləri təqdim edərkən qanun layihəsinin ölkə Prezidentinin “Sosial müdafiə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” 30 dekabr 2019-cu il tarixli Fərmanına uyğunlaşdırıldığını bildirdi. Qeyd edildi ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində publik hüquqi şəxs statuslu dörd qurum - Dövlət Məşğulluq Agentliyi, Dövlət Sosial Müdafiə Fondu, Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi və Sosial Xidmətlər Agentliyi yaradılmış və nizamnamələri təsdiq edilmişdir. Sənəd səsə qoyularaq təsdiq edildi.

İclasda Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” və “Peşə təhsili haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrinə təklif olunan dəyişikliklər təqdim etdi. Komitə sədri qeyd etdi ki, sənəd “Publik hüquqi şəxslər haqqında” qanunda dəyişiklik edilməsi barədə” 2019-cu il 12 iyul tarixli qanunun icrası ilə əlaqədar hazırlanıb. Sözügedən qanunun 4-cü maddəsinə uyğun olaraq publik hüquqi şəxs, dövlət adından, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurum tərəfindən yaradılır. Publik hüquqi şəxs “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” qanunla müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanı tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra hüquqi şəxs statusunu əldə edir. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən yaradılan publik hüquqi şəxsin dövlət qeydiyyatı onun idarəetmə orqanlarının üzvləri tam tərkibdə təyin edilmədiyi halda da həyata keçirilir. Buna əsaslanaraq “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” qanunun 5.4 və 8.1-ci maddələri həmin müddəalara uyğunlaşdırılır. “Peşə təhsili haqqında” qanunun 16.2-ci maddəsi isə “Təhsil haqqında” qanunun 32.2-ci maddəsinə uyğunlaşdırılır. Sənəd səsə qoyularaq təsdiqləndi.

Sonra iclasda Əli Hüseynlinin təqdimatında “Azərbaycan Dəmir Yollarının 140 illiyi (1880-2020)” və Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin 10 illiyi (2012-2022)” yubiley medallarının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” qanunda dəyişikliklər edilməsi barədə qanun layihələri birinci oxunuşda şərh edildi. Komitə sədrləri Siyavuş Novruzov, Qənirə Paşayeva, deputatlardan Fazil Mustafa, Etibar Əliyev, Sahib Alıyev, Aqil Abbas sənədlərlə bağlı fikirlərini bildirdilər. Əli Hüseynli bu medalların təsis olunması ilə bağlı deputatları maraqlandıran suallara aydınlıq gətirdikdən sonra qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq təsdiqləndi.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov “İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında” qanun layihəsini birinci oxunuşda təqdim etdi. Komitə sədri bildirdi ki, dünyada insan orqan və toxumalarının donorluğu və transplantasiyası təbabətin yeni sahəsi olsa da sürətlə inkişaf edir. Əhliman Əmiraslanov qeyd etdi ki, artıq orqan nəqlinin insanların ömrünü xeyli uzatdığı eləmə məlumdur. O, bu sahədəki dünya təcrübəsindən söhbət açaraq bildirdi ki, Azərbaycanda artıq böyrək, qaraciyər, diz oynaqları köçürülməsi əməliyyatları uğurla yerinə yetirilir. Ölkəmizdə qanunvericilik baxımından meyit donordan istifadə sahəsində müəyyən boşluq olduğundan, ancaq canlı donordan istifadə olunur ki, bu da əlavə risk yaradır. Komitə sədri yeni hazırlanan qanun layihəsində bu sahədəki mühüm məqamların diqqətlə araşdırıldığını və nəzərə alındığını vurğuladı. Bildirildi ki, layihə bütün aidiyyəti qurumların mütəxəssislərinin iştirakı ilə ictimai müzakirədən keçirilib və rəylər alınıb. Sənəd orqan transplantasiyasının hüquqi əsaslarını, donorların, resipiyentlərin, transplantasiya sahəsində fəaliyyət göstərən tibb müəssisələrinin, tibb işçilərinin hüquq və vəzifələrini müəyyən edir, buradan irəli gələn münasibətləri tənzimləyir. 5 fəsil, 35 maddədən ibarət sənəddə qanunun tətbiq dairəsi, donorluğun və transplantasiyanın əsas prinsipləri, qayda və şərtləri, bu sahəyə yardımın təşkili, transplantasiya işini həyata keçirən mütəxəssislərin hüquq və vəzifələri, resipiyentlərin uçotu, donorluq işinin koordinasiyası, donor orqanlarının resipiyentlər arasında bölüşdürülməsi kimi məsələlər ətraflı ehtiva olunub. Komitə sədrləri Siyavuş Novruzov, Qənirə Paşayeva, Musa Quliyev, deputatlardan Qüdrət Həsənquliyev, Sahib Alıyev, Elnur Allahverdiyev, Nigar Arpadarai, İlham Məmmədov qanun layihəsi ilə bağlı rəy və təkliflərini səsləndirdilər. Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edildi. Bununla da Milli Məclis bugünkü işini başa çatdırdı.

***Rəfiqə Kamalqızı***

# İsa Həbibbəyli: "Azərbaycan Prezidentinin siyasəti qalib gələcək"



"Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin cəbhə bölgəsində ermənilərin təxribatı nəticəsində yaranmış vəziyyətlə əlaqədar müraciəti müstəqil dövlətimizin və xalqımızın haqq sözünün ifadəsidir". Bu sözləri "SƏS" qəzetinə açıqlamasında Azərbaycan Milli Elmlər Akademiyasının birinci vitse-prezidenti, akademik, millət vəkili İsa Həbibbəyli deyib.

Millət vəkilini sözlərinə görə, təcavüzkar Ermənistanın işğal etdiyi ərazilərimizdə növbəti dəfə təxribata əl ataraq və beynəlxalq cinayət törədərək dinc azərbaycanlı əhalini hədəfə almasına, öldürməsinə, yaralamasına və mülki obyektlərə ziyan vurmasına cavab olaraq Azərbaycan Ordusu bütün cəbhə boyu əks hücuma keçib: "Ordumuzun düşməni əzəcəyi şəksizdir. Çünki işğalçı Ermənistana bundan əvvəlki təxribatlarında da Ordumuz Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə ağır zərbələr endirib. Ermənistan tərəfindən işğal olunmuş ərazilərin bir hissəsi 2016-cı ilin Aprel döyüşlərində azad edildi. Güclü Ordumuzun və rəşadətli əsgərlərimiz iyul ayının 12-də dövlət sərhədimizin Tovuz rayonu istiqamətində keçən hissəsində törətdiyi təxribata görə işğalçı ölkəni cəzalandırdı. İşğalçı ölkəyə bir daha deyildi ki, sülhə nail olmaq üçün yalnız bir yol var: Ermənistanın silahlı qüvvələri Azərbaycanın işğal edilmiş bütün ərazilərindən çıxmalıdır".

İ.Həbibbəyli onu da bildirib ki, ölkə Prezidenti, Ali Baş Komandanın uğurlu siyasəti nəticəsində bu gün həm döyüş meydanında, həm də beynəlxalq hüquq müstəvisində bütün zəruri addımlar atılır və atılacaq: "Ermənistan növbəti hərbi təxribata əl atmaqda məqsəd danışıqlar üçün bütün yolları bağlamaq, eyni zamanda ölkə daxilində mövcud olan problemlərdən ictimaiyyətin diqqətini yayındırmaq, yeni ərazilər işğal etmək idi. Ancaq dövlət başçımızın uğurlu siyasəti nəticəsində işğalçı ölkə böyük zərbələrlə üzləşdi. Bu gün Azərbaycan ordusunun uğurlu hərbi əməliyyatları Ermənistanda böyük təlaşa və çaxnaşmaya səbəb olub. Xüsusilə də, Azərbaycan Prezidentin xalqa müraciətində və Təhlükəsizlik Şurasının iclasında qeyd etdiyi kimi, biz haqlı tərəfik. Azərbaycanın heç bir ölkənin ərazisində gözü yoxdur. Eyni zamanda, öz ərazi bütövlüyünü təmin etməyə, vətəndaşlarını qorumağa qadir güclü dövlətdir. Xalqla dövlət arasında olan birlik, orduya inam, ölkəmizin gücü bizim qələbəmizi şərtləndirən əsas amillərdir".

Dövlətimizin başçısı müraciətində bir daha deyib: "Azərbaycan heç bir təxribata əl atmamışdır. Azərbaycan sadəcə olaraq öz maraqlarını müdafiə edir, öz mövqeyini dəstəkləyir və öz siyasətini alnıaçıq aparır. Biz dəfələrlə bəyan etmişik ki, Dağlıq Qarabağ əzəli tarixi Azərbaycan torpağıdır və bu, həqiqətdir. Ermənistanın baş naziri deyəndə "Qarabağ Ermənistandır", bu, yalandır. Mən deyəndə ki, "Qarabağ Azərbaycandır", bu, həqiqətdir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır".

Akademik söyləyib ki, qəhrəman Azərbaycan Ordusunun tarixi torpaqlarımızın düşməndən azad olunması uğrunda apardığı mübarizə obyektiv reallığın ifadəsi və haqq işidir: "Arzu edirik ki bu, Azərbaycan xalqını böyük qələbəyə çatdıran son döyüş olsun. İndiki məsuliyyətli günlərdə ölkəmizin Prezidenti, Ali Baş Komandanımız İlham Əliyevin ətrafında möhkəm surətdə birləşmək, qəhrəman ordumuza hərtərəfli dəstək vermək müqəddəs borcumuzdur. Xalqımız ürəkdən inanır ki, Prezident İlham Əliyevin apardığı ədalətli və qətiyyətli siyasət qalib gələcəkdir. Nida işarəsi".

***RƏFİQƏ KAMALQIZI***

# Sarsılmazlıq Ordumuza, məğlubiyyət düşmənə aiddir!



**ZƏRİFƏ QULIYEVA, YAP Qadınlar Şurasının İdarə Heyətinin üzvü, Nəsimi YAP təşkilatı İdarə heyətinin üzvü, "Modern ailə və inkişaf" İctimai Birliyinin sədri**

Müdrik insanların dəfələrlə söylədiyi "Siyasətin ədalətli, siyasətçinin adil olması onu dəstəkləyənlərin sırasına baxanda məlum olur" - ifadəsi bu gün Azərbaycanda öz təsdiqini tapır. Çünki bizim dövlətin yeritdiyi siyasət də, dövlət başçımızın siyasi fəaliyyəti də dünyanın hər yerində, işğalçı Ermənistan istisna olmaqla, hamı tərəfindən dəstəklənir. Xarici siyasətimizin beynəlxalq aləmdə təqdir olunması, Silahlı Qüvvələrimizin Ali Baş Komandanının ölkənin ərazi bütövlüyünün bərpası istiqamətində nümayiş etdirdiyi qətiyyət, Milli Ordumuzun işğalçı dövlətin təxribatlarına tutarlı cavab verərək düşmənin geri çəkilməsinə nail olması və bu kimi bir sıra başqa amillər həm ölkə əhalisi, həm də dünya ictimaiyyəti tərəfindən böyük hörmət və ehtiramla qarşılanır. Çünki Azərbaycanın igid oğul və qızları Vətənin şərəfini öz qeyrətləri ilə qoruyub, qanları ilə müdafiə edirlər.

Bu dəfələrlə sübut olunub və bunu görmüşük. Sentyabrın 27-də səhər saat 06:00 radələrində Ermənistanın növbəti bir daha işğalçı ölkənin faşizm siyasətinin göstəricisidir. Bunu dövlət başçımız İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclasında da səsləndirib: "Bu, bir daha Ermənistan faşizminin eybəcər sifətini göstərir. Çünki dinc əhaliyə qarşı belə qəddarlıq ancaq faşist dövlətlərə aid ola bilər və bu, birinci dəfə deyil - Tovuz hadisələri, ondan sonra digər hadisələr. Xocalı soyqırımı erməni vəhşiləri tərəfindən əliyalın dinc əhaliyə qarşı törədilmişdir və bu dəfə də Ermənistanın əsas hədəfi bizim yaşayış məntəqələrimizdir. Onlar bu atəşi açmaqla istəyirlər ki, Azərbaycan ictimaiyyəti arasında, Azərbaycan vətəndaşları arasında cəbhə boyu yerləşən kəndlərdə, şəhərlərdə yaşayan insanlar arasında təşviş yaransın, panika yaransın. Bu gün səhər mən bütün cəhbəboyu bölgələrdən məlumat almışam. Tam qətiyyətlə deyə bilərəm ki, Azərbaycan vətəndaşları cəsarət göstərirlər, hər kəs öz yerindədir və ordumuza, dövlətimizə hər an dəstək verməyə hazırdırlar və bunu edirlər".

Budur xalqımızın öz dövləti ilə birliyi, hərbi hissələrimizdə, hərbi birləşmələrimizdə ruh yüksəkliyi, ordumuza könüllü şəkildə yazılan on minlərlə insanlarımızın öz dövlətinə sadiqliyi. Məqsəd ərazilərimizin bütövlüyünün, ermənilərin yaratdığı qondarma "Dağlıq Qarabağ" probleminin həllinə nail olmaqdır.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Təhlükəsizlik Şurasının iclasında da Dağlıq Qarabağ məsələsinin Azərbaycanın milli məsələsi olduğunu vurğulayaraq bildirdi ki, bu məsələsinin həlli bizim tarixi vəzifəmizdir: "Mən dəfələrlə demişəm, bu gün də demək istəyirəm ki, biz bu məsələni elə həll etməliyik ki, Azərbaycan xalqı bundan razı olsun. Biz bunu elə həll etməliyik ki, tarixi ədalət bərpa edilsin. Biz bunu elə etməliyik ki, Azərbaycanın ərazi bütövlüyünü bərpa edilsin. Mən dəfələrlə demişəm, bizə bu məsələnin, bu münaqişənin yarımçıq həlli lazım deyil. Biz öz torpağımızdayıq, bizim başqa ölkələrin torpağında gözümüz yoxdur. Amma öz torpağımızı heç kimə verən deyilik. Biz heç vaxt imkan verə bilmərik ki, Azərbaycan torpaqlarında ikinci qondarma erməni dövləti yaradılsın. Heç vaxt imkan verə bilmərik və bugünkü hadisələr bunu bir daha göstərir".

Dövlət başçımızın dediyi kimi "Tarixi ədalət bizim tərəfimizdədir. Çünki bu, bizim doğma, dədə-baba torpağımızdır. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Bütün ölkələr Azərbaycanın ərazi bütövlüyünü tanıyır".

Ermənistanın Azərbaycana qarşı davam edən hərbi təcavüzü, yaranmış vəziyyətə və hadisələrin gələcək inkişafına görə bütün məsuliyyət tam şəkildə Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşür. Xüsusilə də, mülki vətəndaşların ölməsi, yaralanması, hətta yaşayış evlərinin dağıdılması barədə sübut və faktlar Ermənistan silahlı qüvvələrinin planlı taktikasıdır. Vaxtilə 1992-ci ildə Xocalıda törədilmiş soyqırımı aktı, ondan sonra törədilən təxribatlar da bunun bariz nümunəsidir. Dövlət başçımız dünənə qədər dəfələrlə bəyan etmişdi ki, Ermənistanın Azərbaycana qarşı davam edən hərbi təcavüzü, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərində mövcudluğu regional sülh və sabitlik üçün əsas təhlükədir. Ona görə də, yaranmış vəziyyətə və hadisələrin gələcək inkişafına görə bütün məsuliyyət tam şəkildə Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşür. Bu gün şanlı Azərbaycan Ordumuz hərbi təxribata cavab olaraq hazırda uğurlu əks-hücum əməliyyatı keçirir, nəticədə düşmənin canlı qüvvəsinə və hərbi texnikasına böyük ziyan vurulub. Azərbaycanın işğal altında olan 7 kəndlərimiz, işğal altında olan yüksəkliklərimiz azad edilib. Şəhidlərimiz, yaralananlarımız var. Allahdan şəhidlərimizə rəhmət, yaralananlarımıza şəfa diləyirik. Vətən, torpaq yolunda, alətsizliyə son qoymaq, Vətən həsrəti ilə yaşamağa son qoymaq yolunda candan keçilir. Azərbaycan Prezidentimizin söylədiyi kimi: "30 ilə yaxın öz doğma torpaqlarına qayıda bilməyən soydaşlarımıza da üz tutub deyirəm ki, biz əlimizdən gələni edəcəyik ki, sizi öz doğma torpaqlarınıza qaytaraq".

Bəli, o günə az qalıb. Artıq Qələbəyə doğru hər gün irəliləyir Şanlı, Güclü Ordumuz, rəşadətli əsgərlərimiz. Xalqımız əmindir ki, Ali Baş Komandan, ölkə Prezidenti İlham Əliyev Cənablarının rəhbərliyi ilə Ordumuz Ermənistanın cinayətlərinin qarşısını almaq üçün öz rəşadətli missiyasını tam uğurla həyata keçirir və keçirəcək və torpaqlarımızı tam olaraq işğaldan azad edəcəyik.

Allah Ordumuzu qorusun və müzəffər etsin!. İnanırıq ki, güclü dövlətin güclü ordusu çox tezliklə, Qarabağın işğal olunmuş ərazilərimizi də geriyə qaytaracaq! Və Azərbaycana xor baxanlar üçün son mənzil məzarlıq və cəhənnəm olacaq!

# Elşad Mirbəşiroğlu: "Ermənistan bu reallığı öz maraqlarına uyğun şəkildə dəyişməyə çalışırdı"



"Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi işğalçılıq siyasətinin motivi ondan ibarətdir ki, "Böyük Ermənistan" utopiyası reallaşdırılsın. Utopiya isə reallaşdırıla bilməz. Çünki utopiya o hala deyilir ki, onun reallıqla heç bir əlaqəsi yoxdur. Azərbaycana qarşı son dövrlərdə hərbi təxribatların intenstiv xarakter almasını şərtləndirən bir sıra məqamları ayrıca qeyd etmək lazımdır. Hesab edirəm ki, bu son dövrlərdə cənab Prezidentin rəhbərliyi altında Azərbaycan Respublikasının həyata keçirdiyi uğurlu diplomatiya ilə bağlıdır". Bunu SİA-ya millət vəkili Elşad Mirbəşiroğlu deyib.

"Bildiyimiz kimi bu gün bütün beynəlxalq müstəvilərdə münaqişənin tənzimlənməsinin yeganə yolu kimi Azərbaycanın ərazi bütövlüyünün təmin olunması göstərilir. Başqa cür qeyd etmiş olsaq qeyd olunur ki, münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində tənzimlənə bilər. 2019-cu ilin oktyabr ayının 25-26-da Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşü baş tutdu. Zirvənin yekunu olaraq 4 qətnamə qəbul olundu. Həmin 4 qətnamənin 3-də Azərbaycanın ərazi bütövlüyü aydın mətnlə dəstəkləndi. Həmçinin ayrıca olaraq aydın şəkildə ifadə Ermənistanın işğalçılıq siyasəti nəticəsində yaranmış vəziyyətin hüquqiliyi tanınmır. Burada bir sıra vacib məqamları vurğulamaq yerinə düşər. Birincisi, Ermənistan işğalçı dövlətdir. Çünki orada Ermənistanın işğalçılıq siyasəti nəticəsində yaranmış vəziyyətin hüquqiliyindən danışılır. İkincisi isə Ermənistan Azərbaycan ərazilərini işğal edib, bu fakt kimi qeyd olunur və sənədlərdə öz əksini tapır. Digər məqam isə Ermənistanın işğalçılıq siyasətinin nəticəsi tanınmır və bu müvəqqətidir, aradan qaldırılacaq. Həmin dövrə qədər də Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki mövcud mövqeyi Azərbaycanın münaqişə vəziyyətində ədalətli maraqlara malik olduğunu aydın şəkildə göstərir. Beynəlxalq ictimaiyyət də Azərbaycanın ədalətli mövqelərini qəbul edir. Bu da Azərbaycanın yaratmış olduğu yeni reallıq idi. Yəni Ermənistanı narahat edən başlıca məqam ondan ibarət idi ki, Azərbaycan yeni siyasi reallıq formalaşdırdı. Təbii ki, belə olan halda işğalçı, separatçı Ermənistan bu reallığı öz maraqlarına uyğun şəkildə dəyişməyə çalışırdı.

Bu ilin iyul ayının 12-də işğalçı Ermənistan məhz Dağlıq Qarabağ ərazilərindən deyil, Azərbaycan-Ermənistan dövlət sərhəddi boyunca təxribatlar törətməyə başladı. Məqsəd ondan ibarət idi ki, Azərbaycan bu təxribatların qarşısını alan zaman Ermənistanın ərazisindəki atəş nöqtələrini susdurmalı olacaqdı. Ermənistan da bunu beynəlxalq ictimaiyyətə Azərbaycanın Ermənistan ərazisinə təxribatı kimi təqdim etmək istəyirdi və etdi də. Amma heç bir nəticə əldə edə bilmədi. Bu da ona dəlalət edir ki, Azərbaycan beynəlxalq informasiya məkanında da artıq kifayət qədər effektiv fəaliyyət göstərə bilir"- deyə, deputat fikrini tamamlayıb.

***Ceyhun Rasimoğlu***

# İranın anlaşılmaz "qonşuluq siyasəti" yoxsa...

## İşğalçı Ermənistanın nəfəs borusu?

***Ermənistanın işğalçılıq siyasəti və bu siyasət fonunda artıq 30 ildir ki, azərbaycanlıları qətlə yetirməsi, hərbi təcavüzünü davam etdirməsi nəticə etibarı ilə Azərbaycanın səbrinin tükənməsi ilə başa çatdı. Çünki ötən 30 ildə aparılan sülh danışıqlarının istənilən nəticəni verməməsi, Ermənistanın hər vəchlə bu prosesdən yayınması, üstəlik, əlavə ərazilərimizə qarşı da iddialar irəli sürməklə təhdid dilində danışmaq cəhdlərinin bir sonu, yaxud düşmənin birdəfəlik susdurulması üçün son nöqtəyə gəlinməli idi və gəlinir də. Amma...***




Amma müharibə amilindən bəhs edərkən, daha bir fakt budur ki, istənilən müharibə aparan ölkələrin sərhədlərində qonşu dövlətlər də olur və bu dövlətlər ya münaqişənin dayandırılması üçün səylər göstərir, ya da qeyri-rəsmi (!) silahlandırma və s. kimi məsələlərdə neytral mövqeyini qoruyur, qonşuluq prinsipinə sadiqliyini nümayiş etdirir.

### Maraqlıdır, müsəlman İran bunlardan bixəbərdirmi?

Təəssüf ki, müsəlman Azərbaycan digər müsəlman ölkəsi, rəsmi dövlət quruluşu islamçılıq üzərində qurulan İran tərəfindən bu münasibəti görmür. Halbuki, məhz Ermənistanın işğalçılıq siyasəti nəticəsində düşmən tapdağı altında qalan torpaqlarımızda azərbaycanlılar qətlə yetirilir, ailələr başsız, uşaqlar yetim qalır, körpələrin, qadınların, qocaların həyatları yarımçıq kəsilir, ömürlərinə son qoyulur, məscidlərimiz yandırılır, dağıdılır, ya da donuzçuluq fermalarına çevrilir, üstəlik əsrlərdən bəri mövcud olan müqəddəs ocaqlarımız, pirlərimiz, qəbirlərimiz təhqirlərə məruz qalırlar.

Maraqlıdır, müsəlman İran bunlardan bixəbərdirmi? Yaxud bixəbər deyilsə, nəyə görə müsəlmançılıq təəssübkeşliyindən çıxış etməyərək ermənilərin vəhşiliklərinə, vandallıqlarına qarşı etiraz səsini ucaltmır? Məgər İran da İslam Əməkdaşlığı Təşkilatının üzvü olaraq, Ermənistanın Azərbaycana qarşı təcavüzkar, işğalçılıq siyasətini pisləyən qətnaməyə imza atmayıbmı? Atıbsa, hansı səbəbdən digər müsəlman ölkələrindən fərqli olaraq ya gizli, ya da açıq şəkildə Ermənistana bu və ya digər şəkildə yardımlar göstərir? Axı açıq desək, müsəlman Azərbaycan xristian Ermənistanla müharibə aparır və illərdən bəridir ki, məhz işğalçılıq siyasətinə görə regional və beynəlxalq iqtisadi və s. layihələrdən kənarda qalan Ermənistana nəfəs borusu rolunu oynamaq İran üçün bu qədərmi maraqlıdır? Maraqlıdırsa, bunun da səbəblərini izah etsin. Təəssüf ki, nə izah var, nə də dürüst yanaşma, özü də "qonşuluq siyasəti prisnipləri" fonunda..!

### Azərbaycan İrana qarşı atılacaq hər hansı addıma qarşı daim qəti mövqeyini ortaya qoyub



Yeri gəlmişkən, xatırlatmaq olar ki, ABŞ-İran münasibətlərində Azərbaycan dövləti daim həmin prinsiplərə sadiqliyini nümayiş etdirib və hətta amerikalıların israrlarına baxmayaraq, İrana qarşı atılacaq hər hansı addıma qarşı qəti mövqeyini ortaya qoyub. Məsələn, Azərbaycan hava məkanı üzərindən amerikalıların hərbi məqsədli planlarının icrasına imkan verməyib. Çünki ilk öncə, qonşuluq siyasəti prizması ilə yanaşı, İranın həm də müsəlman dövlət olduğunu nəzərə alan Azərbaycan həmin amilə heç vaxt xəyanət etməyib.

Bəs biz nəyi müşahidə edirik? Azərbaycanla müharibə aparan və beynəlxalq aləmdən heç bir siyasi dəstək almayan, bu vasitə ilə yanlış mövqedə olduğu isbatlanan işğalçı Ermənistana hərbi məqsədli yüklərin göndərilməsini, habelə müxtəlif xarici KİV-lərdən sızan informasiyalardan da öyrəndiyimiz kimi, Yaxın Şərq ölkələrindən PKK və s. terrorçuların İran ərazisindən işğalçı ölkəyə göndərilmələrini. Budurmu münaqişə müddətində "mehriban qonşuluq siyasəti" yürüdən İranın əsl məqsədi? Budurmu bir müsəlman ölkəsinin "atəşkəsin əldə olunması üçün vasitəçilik təklifinin" pərdəarxası məqamı?

İranın bir sıra ticari, tikinti və s. şirkətləri işğal müddəti boyunca qondarma "dqr"də biznes imkanlarını artırır, qondarma rejimin rəhbərliyi ilə iş birliklərinə gedir, üstəlik turizm imkanlarından da yararlanır

Bugünlərdə İran tərəfi rəsmi şəkildə bəyan etdi ki, öz ərazisindən işğalçı Ermənistana sərf edəcək hər hansı istifadəyə yol verilməyib. Amma sosial şəbəkələrdən, müxtəlif teleqram kanallardan yayılan danılmaz kadrlar tamamilə başqa mənzərəni ortaya qoydu. Məlum oldu ki, İrandan Ermənistana qatar-qatar hərbi məqsədli yük maşınları yola çıxır və həmin yük maşınlarındakı silah-sursatlar məhz müsəlman azərbaycanlıların (istər dinc əhali olsun, istərsə də hərbçilərimiz) öldürülməsi, məzarlarımızın dağıdılması üçün nəzərdə tutulub. İran bu vasitə ilə sübut edib ki, onun üçün müsəlman qanının tökülməsi sadəcə havadır, boş məsələdir. Əcəba, onda bu ölkə hansı məramla özünü "İslam dövləti" adlandırır? Biz hələ də bu sualın cavabını tapa bilmirik. Amma cavabı tapılan suallarımız da var və illərdir ki, yazılır, deyilir... İranın bir sıra ticari, tikinti və s. şirkətləri işğal müddəti boyunca qondarma "dqr"də biznes imkanlarını artırır, qondarma rejimin rəhbərliyi ilə iş birliklərinə gedir, üstəlik, turizm imkanlarından da yararlanır. Bəs bunlara hansı cavablar veriləcək? Yenədəmi "mehriban qonşuluq prinsipinə sadiqlik" bəyanatlarıylamı?

### Tovuz hadisələrindən əvvəl müxtəlif gizli yollarla Ermənistana daşınan silahlar Gürcüstan ərazisindən buraxılmadı




Artıq dünyanın siyasi arealında böyük dəyişikliklər baş verir və Azərbaycanın regional gücdən beynəlxalq gücə çevrilməsi prosesi də bu dəyişikliklərin tərkib hissəsidir. Azərbaycan bütün bunlarla yanaşı, həm də siyasi diplomatiyası ilə mühüm qalibiyyətlə əldə edir və beynəlxalq sferada öz ali prinsiplərini qoruyub-saxlayır, inkişaf etdirir. Onlardan biri də həmsərhəd olduğu ölkələrlə mehriban qonşuluq siyasəti qurmasıdır. Məsələn, buna misal olaraq, qonşu və dost Gürcüstanı da göstərə bilərik. Halbuki, hələ iyulda baş vermiş Tovuz hadisələrindən əvvəl müxtəlif gizli yollarla Ermənistana daşınan silahlar Gürcüstan ərazisindən buraxılmadı və gürcü tərəfi qətiyyətlə bəyan etdi ki, belə addım ilk növbədə qonşuluq siyasətinə ziddir və xəyanətdir.

Yaxud, bügünlərdə Gürcüstanın Cavaxetiya bölgəsində yaşayan və həmin bölgəni həyasızcasına "kiçik Ermənistan" adlandıran yerli ermənilər Ermənistana keçmək üçün gürcü sərhədçiləri ilə toqquşdular və Gürcüstan tərəfi onların keçməsinə izn vermədi. Bu faktor kiçik mahiyyət daşısa da, əslində, özündə bir sıra mühüm məsələləri ehtiva edir.

Beləliklə, İran tərəfinin Ermənistana silahlı-sursatlı yük maşınları göndərməsi faktı artıq ciddi siqnaldır və bu məsələyə rəsmi açıqlama verilməlidir. Çünki işğalçı Ermənistanı, eləcə də "dqr"i illərdir ki, enerji, qida və s. məsələlərdə təmin edən İran tərəfinin bu dəfə silahla da dəstək göstərməsi istər Azərbaycan xalqına, istərsə də dünyanın müsəlman ictimaiyyətinə açıqlanmalı, izahat verilməlidir.

**Rövşən RƏSULOV**

# Moldova portalı: “Qarabağ Azərbaycandır!”


TRIBUNA
ПРЕЗИДЕНТ АЗЕРБАЙДЖАНА ИЛЬХАМ АЛИЕВ: НИ ДЛЯ КОГО НЕ СЕКРЕТ, ЧТО ПЕРВЫЙ ОГОНЬ, В ТОМ ЧИСЛЕ АРТИЛЛЕРИЙСКИЙ, ОТКРЫЛА АРМЕНИЯ, И ПЕРВЫМИ ПОГИБШИМИ БЫЛИ АЗЕРБАЙДЖАНСКИЕ ВОЕННОСЛУЖАЩИЕ.

***Moldovanın nüfuzlu “Tribuna.md” portalı Ermənistan ordusunun təxribatları ilə əlaqədar AZƏRTAC-a istinadla Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycan xalqına müraciətində əksini tapan fikirlərini dərc edib. Moldovalı jurnalist məqaləsində Prezident İlham Əliyevdən sitatlar gətirərək yazır: “Son vaxtlar Ermənistanın Azərbaycana qarşı hərbi təxribatları müntəzəm xarakter almışdır.***

Heç kəsə sirr deyil ki, ilk atəşi, o cümlədən artilleriya atəşini Ermənistan açıbdır və ilk həlak olanlar da məhz Azərbaycan hərbçiləri olmuşdur. Azərbaycan düşmənə layiqli cavabını verdi və düşmən bir santimetr irəliyə gedə bilmədi. Düşmən dayandırıldı, ölkəmizin ərazi bütövlüyü qorundu. Sarsıdıcı zərbələr nəticəsində Ermənistan tərəfi məcbur olub acı məğlubiyyətlə razılaşdı. Mən bu barədə demişəm, bir daha demək istəyirəm, əgər bizim istəyimiz olsaydı, hərbi döyüşləri Ermənistan ərazisinə keçirə bilərdik. Ancaq bizim Ermənistan ərazisində hərbi hədəflərimiz yoxdur və belə olan halda bir neçə gündən sonra atəş dayandırılmışdır”.

Məqalədə müəllif Azərbaycan Prezidentinin fikirlərinə istinadla qeyd edir ki, Azərbaycan torpaqlarının işğalı Ermənistan hakimiyyətinin planındadır və onlar bunu gizlətmirlər: “Onların hərbi-siyasi rəhbərliyi Azərbaycanı yeni işğalla hədələməyə çalışırdı, yeni ərazilər uğrunda yeni işğal siyasəti. Budur, bu gün Ermənistan hərbi-siyasi rəhbərliyinin siyasəti. Digər səbəb Ermənistanda mövcud olan çox ciddi sosial, iqtisadi və siyasi məsələlərdən ölkə əhalisinin fikrini yayındırmaq və Azərbaycandan düşmən obrazı yaratmaqdır. Daha bir səbəb isə ondan ibarətdir ki, Ermənistan hər vəchlə çalışır ki, danışıqlar prosesi pozulsun və deyə bilərəm ki, buna nail olub. Məhz Ermənistanın riyakar, qeyri-konstruktiv və yalançı siyasəti nəticəsində hazırda danışıqlar faktiki olaraq dayanıbdır. Növbəti təxribatın törədilməsi məhz bu məqsədləri güdür və bu məqsədlər onlar üçün əsas məqsədlərdir”.

Müəllif Prezident İlham Əliyevin xalqa müraciətinin bütün tezisləri barədə geniş məlumat verib və yazını dövlətimizin başçımızın bu fikirləri ilə yekunlaşdırıb: “Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”.



# “Siyasi partiyaların birgə bəyanatı xalqla hökumətin həmrəyliyinin və ümumi siyasi birliyin göstəricisidir”

“Bu gün Azərbaycan cəmiyyəti hər zaman olduğundan daha böyük milli həmrəyliyin şahididir. Ölkənin siyasi tarixində ilk dəfə olaraq 50 siyasi partiya rəhbərinin Ali Baş Komandan, Prezident İlham Əliyevin yanında olduqlarına dair birgə bəyanatı milli birliyinin ən ali təcəssümüdür. Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatına dair ölkədə fəaliyyət göstərən siyasi partiyaların 50-nin birgə bəyanatı təkcə xalqla hökumətin həmrəyliyindən xəbər vermir, bu eyni zamanda Azərbaycanda yaşanan siyasi birliyin göstəricisidir”. Bunu SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.

Sədaqət Vəliyeva bildirib ki, Ermənistanın işğalçı siyasətinə etiraz, eləcə də xalqın haqq tələbi ölkədəki siyasi qüvvələri birləşdirir və siyasi partiyaların rəhbərləri birgə bəyanatı Azərbaycan xalqının və ölkənin siyasi partiyalarının yekdilliklə Prezidentin yanında olduğunu nümayiş etdirir: “Ölkənin 50 siyasi partiyasının Ali Baş Komandan, Prezident İlham Əliyevin yanında olduqlarına dair bəyanatları milli və siyasi həmrəyliyin parlaq göstəricisidir. Bu bəyanat eyni zamanda ölkədə siyasi dialoqun mövcudluğunun sübutudur. Birgə bəyanat ölkəmizdə siyasi müstəvidə etibarlı və peşəkar münasibətlərin qurulmasına zəmin yaradır”.

“Azərbaycanın haqq və ədalətli mövqeyi şəxsi ambisiyalardan imtina etməyi və milli maraqlar naminə vahid qüvvə kimi çıxış etməyi tələb edir” - deyən Sədaqət Vəliyeva əlavə edib ki, tarixi ədalət və haqq uğrunda aparılan müharibədə xalq iqtidar və müxalifət cəbhələrinə bölünməz, bunu etmək istəyən qüvvələr isə düşmənin yanında duranlardır: “Müsavat Partiyası və Azərbaycan Xalq Cəbhəsi Partiyası milli həmrəylik nümayiş etdirə bilmədilər. Özlərini xalqın, millətin yanında olduqlarını göstərməyə çalışan Müsavat Partiyası və Azərbaycan Xalq Cəbhəsi Partiyası təəssüflər olsun ki, Vətənimizin bu ağır günündə, torpaqlarımızın Ermənistanın işğalından azad edilməsi üçün şanlı ordumuzun uğurlu əks-hücum əməliyyatlarına digər siyasi partiyalarla birlikdə dəstək vermədilər. Ali Baş Komandanın bu sahədə həyata keçirtdiyi siyasəti dəstəkləməmələri onların səmimi olmadıqlarını və əsl simalarını göstərir. Onlar Vətən müharibəsinə etinasız qaldılar. Azərbaycan xalqının son 30 ildir səbirsizliklə gözlədiyi Vətən müharibəsinin başlamasının ilk günündə Müsavat və Azərbaycan Xalq Cəbhəsi partiyaları ümummilli dəyərlərə sahib çıxmayaraq, Vətən torpaqlarının düşmən tapdağından azad edilməsinə sevinməyərək, düşmən dəyirmanına su tökdülər. Siyasi ədavət saxlayan bu partiyalar belə tarixi bir gündə Ali Baş Komandan İlham Əliyevin yanında olma qabiliyyətini göstərə bilmədilər”.

Sədaqət Vəliyeva bildirib ki, Müsavat Partiyası və Azərbaycan Xalq Cəbhəsi Partiyasının dövlətimizin və xalqımızın çətin və şərəfli günündə birlik və bərabərlik kimi milli çağırışlara qoşulmamaları böyük bir təəssüf doğurur.

**Gülyana**

# “Şuşaya, Xankəndinə çatmağımıza az qalır”



“Ermənistan panikadadır. Azərbaycan Ordusunun vurduğu sarsıdıcı zərbələr düşmən dövlətin bütün hərbi -siyasi fəaliyyətini demoralizə etməkdədir. İtkilərini gizlətsələr də, ölüm sayları minlərlədir. Özünüz baxın, onlarla kəndin, yuksəkliklərin, mövqelərin azad edilməsi, çoxlu sayda səngərlərin, istehkamların darmadağın olunması, Xocavənddə böyük bir alayın (adətən, alayda minlərlə hərbçi olur) və s. məhv edilməsi onu göstərir ki, artıq Ermənistanda hər bir ailəyə tabut getməkdədir. Düşmən əsgərləri mövqelərini qoyub qaçırlar. Paşinyana tabe olmayan tv-lərdə nümayiş etdirilən kadrlarda aydın göstərilir ki, hərbi polis geri qaçan hərbi maşınların, mülki avtomobillərin təkərlərinə atəş açır, şüşələrini sındırırlar”. Bunu SİA-ya Yurddaş Partiyasının sədri Mayis Səfərli deyib.

Partiya sədrinin sözlərinə görə, Paşinyan az qala hər gün başıalovlu Putinə zəng edir: “Müdaxilə etməyi, döyüşləri dayandırmağa kömək üçün yalvarır. Bu, mümkün deyil. Yayından çıxan oxu heç kim durdura bilməz. Qorxu içində olan düşmən yeni hədələrə əl atır, bizi qorxutmaq istəyir. Bu ölkənin Rusiyadakı səfiri Bakını, digər şəhərlərimizi, mülki və strateji obyektlərimizi “İskəndər” raketləri ilə vurmağa çağırır.

Əlbəttə ki, bu, nağıldan başqa bir şey deyil. Əvvəla, ölkəmizdə raket və hava hücumundan etibarlı müdafiə sistemləri iş başındadır. Həmin raketlər elə Ermənistanın səmasındaca tutulub məhv edilər. İkincisi, düşmən belə səhvə yol verərsə, Naxçıvandakı dağıdıcı silahlarımız və qoşunlarımız 10-15 dəqiqə ərzində Yerevanı yer üzərindən silə bilərlər. Təcavüzkar dövlətin rəhbərləri dil-boğaza qoymadan Azərbaycan tərəfdən Türk əsgərlərinin və suriyalı muzdluların döyüşdüyünü iddia edirlər. Hətta guya Türkiyəyə məxsub F-16-nın düşmən hərbi təyyarəsini vurduğunu deyirlər. Dünən “Rossiya 1 “ televiziyasına verdiyi müsahibəsində Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev bu dezinformasiyaları rəsmən təkzib etdi.

Bəli, bütün dünya görür ki, Türkiyə bizə dəstəkdir. Qardaş ölkənin rəhbərlərinin bəyan etdikləri kimi, Azərbaycan necə istəsə, o şəkildə də kömək etməyə hazırdırlar. Bu, o deməkdir ki, gərək olduğu halda, Türk Əsgəri bizimlə çiyin-çiyinə vuruşmağa hazırdır. Fəqət bu gün buna ehtiyac duymuruq. Gücümüz yetərlidir. Türkiyənin hazırda bizə verdiyi mənəvi və siyasi dəstəyi yüksək qiymətləndiririk. Bu, əsl qardaşlıqdır!

Muzdlulara gəkdikdə - buna da ehtiyacımız yoxdur. Şanlı əsgərimiz döyüş meydanında şir kimi vuruşur. Ruhu güclüdür. Pul qarşılığında vuruşanlar bu rəşadəti göstərə bilməz. Digər tərəfdən, yaxşı təlim keçməmiş, coğrafiyamızla, relyefimizlə tanış olmayan, dilimizi bilməyən muzdlular yalnız ümumi işimizə mane ola bilərlər. Şuşaya, Xankəndinə çatmağımıza az qalır. Böyük Zəfər lap yaxındadır. Allah Əsgərimizi qorusun!”.

# Azərbaycanda bu uşaqlara müavinət veriləcək



Milli Məclisin dünən keçirilən plenar iclasında “Sosial müavinətlər haqqında” qanuna dəyişiklik layihəsi birinci oxunuşda müzakirəyə çıxarılıb. Axar.az xəbər verir ki, qanuna əlavə edilən yeni maddəyə əsasən övladlığa götürülən uşağa görə hansı halda müavinətin təyin ediləcəyi müəyyənləşir.

Belə ki, qanuna dəyişiklik layihəsi ilə övladlığa götürülən uşağa görə müavinət valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş 3-18 yaş arası uşağı, o cümlədən 0-18 yaş arası sağlamlıq imkanları məhdud uşağı övladlığa götürən şəxsə 2021-ci il yanvarın 1-dən sonra övladlığa götürülən uşaq üçün (uşağın övladlığa götürülməsi haqqında məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi təqdim edildikdə) təyin olunacaq”.

Qanuna digər layihəsində isə qeyd edilib ki, dövlət qulluqçularına ömürlük müavinət, yaşa görə müavinət, 18 yaşından yuxarı əlilliyi olan şəxslərə əlilliyə görə müavinət, ailə başçısını itirməyə görə müavinət, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş bəzi kateqoriya şəxslərə kommunal, nəqliyyat və digər xidmətlərə görə müavinətlərdən birini almaq hüququ olan şəxslərin övladlığa götürülən uşağa, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşağa görə aylıq müavinət almaq hüququ yarandıqda, həmin şəxslərə hər iki müavinət təyin ediləcək. Qanuna dəyişiklik layihəsi müzakirələrdən sonra birinci oxunuşda qəbul edilib.

# Nikol hansı "donu" geyinsə də, "yamağı" görünür...

## *Ekspertlər: "Azərbaycan Prezidenti İlham Əliyev isə şərtsiz olaraq dəqiq, tamamilə məntiqli, düzgün, ardıcıl çıxış etdi"*

***Bəli, hələ də erməni xalqı anlamır ki, Ter-Petrosyan hakimiyyətindən tutmuş indiki "küçə demokratı", başıpozuq, xəstə təfəkkürlü Nikol Paşinyana kimi savadsızların uğursuz hakimiyyət "siyasətinin" əziyyətini elə sadə erməni xalqı hələ çox çəkəcək. İşğalçı və quduzlaşmış Paşinyan bu günə kimi hansı qələtləri etməyib? "Qarabağ Ermənistanındır, nöqtə" böyük qələtini edərkən, Azərbaycan Prezidentinin cavabı "NİDA!" olmalı idi. Bu qələti edəndə Azərbaycan Ordusunun cavabı belə olmalı idi! Ən əsas məqam isə, Azərbaycan Prezidenti Nikola bütün dünya siyasətçiləri, prezidentləri səviyyəsində ona "düz yola gəlin" mesajını verəndə anlamalı idi ki, bir də düz yola gəlmədiyi halda növbəti dəfə elədiyi qələtlərin bədəli daha ağır olacaq! Çünki "küçə demokratı" bu düşüncə ilə uzağa gedə bilməyəcək.***



Sentyabrın 29-da "Rossiya-1" telekanalında yayımlanan "60 dəqiqə" proqramında Azərbaycan-Ermənistan təmas xəttində baş verən son hadisələrə həsr olunan verilişdə də Azərbaycan Prezidenti İlham Əliyev faktlara əsaslanaraq, şərtsiz, dəqiq, tamamilə məntiqli, düzgün, ardıcıl çıxış etdi. Ancaq yenə də Ermənistanın baş naziri əvvəlki çıxışlarından fərqlənməyən məntiqsiz və qeyri-obyektiv çıxışları ilə yenidən, bu ağır gündə ictimaiyyətin nifrətini qazandı. Ancaq erməni xalqı anlamalıdır ki, Paşinyan nə edirsə etsin, necə çıxış edirsə etsin özünə xas olan "düşüncəsini" ortaya qoyub.

Bu gün Ermənistan baş naziri bir daha anlamalıdır ki, Azərbaycana qarşı təxribatınnı qarşısında güclü Azərbaycan ordusu və rəşadətli Azərbaycan əsgərini görəcək. Prezident İlham Əliyev də çıxış zamanı bunu bir daha vurğulamışdı: "Azərbaycan Ordusu bu təxribatın qarşısını almaq və torpaqlarımızı azad etmək üçün öz rəşadətli missiyasını həyata keçirir".

Dövlətimizin başçısı çıxışında bildirib ki, Ermənistanın bu təxribatının mahiyyətində faşizm xisləti dayanır: "Ermənilər bu gün səhər saatlarından başlayaraq mülki insanları atəşə tutaraq faşist xislətlərini bir daha göstərdilər. Bu təxribatın qarşısının alınması üçün əks hücum tədbirləri həyata keçirilir, düşmənin atəşinin qarşısı uğurla alınır və düşmən yerinə otuzdurulur. Hadisələrlə bağlı ölkə ictimaiyyətinə ətraflı məlumat veriləcək. Azərbaycan Ordusu bu təxribatın qarşısını almaq və torpaqlarımızı azad etmək üçün öz rəşadətli missiyasını həyata keçirir. Bu gün bütün Azərbaycan xalqı Ali Baş Komandanın ətrafında sıx birləşib və bu, Ermənistanı qorxuya salır".

Oleq Kuznetsov: "Bazar günü səhər tezdən baş verənlər müasir Ermənistanda mövcud olan açıq-aşkar nasist rejimin mahiyyətinin qanunauyğun ifadəsidir"

Rusiyalı politoloq Oleq Kuznetsov bazar günü səhər tezdən Ermənistan ordusunun Azərbaycanın dinc əhalisinə raket-artilleriya zərbələri endirməsindən kədərləndiyini və 1941-ci il 22 iyun gününü xatırladığını deyib: "O vaxt Hitler Almaniyasının qoşunları eynilə indiki kimi - istirahət günü, xaincəsinə və müharibə elan etmədən Sovet İttifaqına hücum etmişdi. Hərçənd, nasist Qaregin Njdenin ideyasının davamçılarının başqa cür hərəkət edəcəyini gözləməyə dəyməz".

Oleq Kuznetsov onu da söyləyərək bildirib ki, Azərbaycan dəfələrlə bəyan etmişdi ki, Ermənistanın Azərbaycana qarşı davam edən hərbi təcavüzü, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərində mövcudluğu regional sülh və sabitlik üçün əsas təhlükədir: "Ona görə də, yaranmış vəziyyətə və hadisələrin gələcək inkişafına görə bütün məsuliyyət tam şəkildə Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşür. Tarix göstərir ki, nasizm və faşizm hansı milli zəmində formalaşmasından və inkişaf etməsindən asılı olmayaraq həmişə və hər yerdə nifrət, təcavüz və müharibə yolu seçir. 2020-ci il sentyabrın 27-də, bazar günü səhər tezdən baş verənlər gec-tez olmalı idi, çünki bu, müasir Ermənistanda illər boyu yaradılan və mövcud olan açıq-aşkar nasist rejimin mahiyyətinin qanunauyğun ifadəsidir. Azərbaycan öz ərazisində və özünün ərazi bütövlüyü uğrunda müharibə aparmağa məcbur edilib, onun müharibəsi düzgün və ədalətlidir. Ümidvaram ki, bu müharibə ölkənin ən yeni tarixinə "Azadlıq müharibəsi", hətta "Vətən müharibəsi" ilə düşəcək və dünya tarixində bu cür müharibələrin hamısı kimi o da zəfərlə başa çatacaq. Mən Azərbaycan xalqına qələbə, Azərbaycan ordusuna rəşadət arzu edirəm".

İqor Korotçenko: "Prezident İlham Əliyev şərtsiz olaraq dəqiq, tamamilə məntiqli, düzgün, ardıcıl çıxış etdi. Bu, MDBMİ məktəbidir. MDBMİ doğrudan da böyük kadrlar yetişdirir"

"Natsionalnaya oborona" jurnalının baş redaktoru İqor Korotçenko bildirib ki, Azərbaycan və Ermənistan liderlərinin çıxışlarını diqqətlə dinlədim: "Azərbaycan Prezidenti İlham Əliyev şərtsiz olaraq dəqiq, tamamilə məntiqli, düzgün, ardıcıl çıxış etdi. Bu, MDBMİ məktəbidir. MDBMİ doğrudan da böyük kadrlar yetişdirir. İndi isə deyilənlərin mahiyyətinə gələk. Prezident Əliyev haqlıdır və tamamilə ədalətli olaraq dedi ki, peyk, elektron, kəşfiyyat texnologiyalarının müasir inkişaf səviyyəsini nəzərə alsaq, Azərbaycan ərazisinə doğrudan da türk qırıcıları göndərilsəydi, bu faktı gizlətmək mümkün deyildi. Bunu peyk kəşfiyyatı olan istənilən ölkə aşkar edə bilər. Bu gün isə Dağlıq Qarabağ bölgəsi dünyanın bütün aparıcı ölkələrinin sıx müşahidəsi altındadır. Həmkarlarımın diqqətini bir məqama çəkmək istərdim. Biz hamımız beynəlxalq hüququn tərəfdarıyıq. Beynəlxalq hüquq nöqteyi-nəzərindən, döyüş əməliyyatları Azərbaycanın ərazisində, Azərbaycan hərbi qüvvələri və erməni hərbi birləşmələri arasında aparılır". Rusiyalı politoloq onu da bildirib ki, Azərbaycan dəfələrlə bəyan etmişdi ki, Ermənistanın Azərbaycana qarşı davam edən hərbi təcavüzü, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərində mövcudluğu regional sülh və sabitlik üçün əsas təhlükədir: "Ona görə də, yaranmış vəziyyətə və hadisələrin gələcək inkişafına görə bütün məsuliyyət tam şəkildə Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşür".

Bəli, artıq istər Paşinyan, istərsə də ermənilər tarixin ibrət dərsindən nəticə çıxarmalarının vaxtıdır. Azərbaycanın yolu da, mübarizəsi, mövqeyi bu gün bir daha özünü göstərir. Və bu gün heç nə dəyişmir. Realllıq budur: təcavüzkar zəbt etdiyi torpaqlardan getməlidir, vəssalam!

***RƏFİQƏ HÜSEYNOVA***

# Ermənilər vurulmuş SU-25-in fotosunu yaydılar və... Növbəti böhtan!



Ermənilər vurulmuş SU-25 qırıcı təyyarələrinin vurulduqdan sonrakı fotolarını ictimailəşdirərək, hələ də onun guya Türkiyə Silahlı Qüvvələrinə məxsus F-16 qırıcısı ilə vurulduğunu iddia edirlər. SİA xəbər verir ki, Armenianreport-un təqdim etdiyi fotolardan ilk olaraq belə nəticəyə gəlmək olar ki, istənilən hərbi təyyarə yalnız digər qırıcı ilə deyil, həm də havadan müdafiə raketləri ilə məhv edilə, ya da düzgün idarə olunmadığına görə, dağa, müxtəlif yüksəkliklərə çırpılaraq qəzaya düşə bilər.

Başqa tərəfdən, Azərbaycan Prezidenti İlham Əliyev Rusiya telekanalına verdiyi müsahibəsində erməni tərəfinin SU-25 təyyarəsinin məhz Türkiyəyə məxsus F-16 qırıcısı ilə vurulmasını təsdiq edən dəlil tələb etmişdi. Göründüyü kimi, erməni tərəfi dəlil və sübut əvəzinə, sadəcə SU-25-in qırıntılarının şəklini ictimailəşdirib. Ancaq nə radarları, nə də digər aşkaredici qurğuları vasitəsi ilə F-16 qırıcısının görüntülərini sübuta yetirə bilməyiblər.





Digər yandan, bu gün Ermənistan rəhbərliyinə sual oluna bilər ki, əgər onlar Azərbaycanla müharibənin "dqr"-ə məxsus "ordu" tərəfindən aparıldığını iddia edirlərsə, bu zaman qiyməti kifayət qədər böyük məbləğə söykənən SU-25 təyyarəsini heç bir iqtisadi və s. potensialı olmayan qondarma "respublika" haradan əldə edib? Bu faktın özü sübut etmirmi ki, hazırda da qondarma rejim adından Azərbaycana qarşı hərbi təcavüz edən məhz Ermənistanın silahlı qüvvələri tərəfindən davam etdirilir?

Xatırladaq ki, Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev də sözügedən məsələ ilə bağlı vurğulayıb ki, təyyarə dağa çırpılaraq qəzaya uğrayıb və yaxşı olardı ki, erməni tərəfi ikinci təyyarənin də eyni aqibətlə üzləşdiyini etiraf etsin.

Göründüyü kimi, erməni tərəfi indi də böhtan və yalanları ilə dünya birliyinin diqqətini aldığı sarsıdıcı məğlubiyyətlərinə cəlb etməyə çalışır və bunu etdikdə, daha çıxılmaz vəziyyətə düşür.

***Rövşən RƏSULOV***

# Azərbaycan-Ermənistan: İnformasiya müharibəsində son vəziyyət necədir?



### Dünya mediasında və sosial şəbəkələrdə erməni dezinformasiya və təxribatlarına qarşı mübarizədə hansı vəziyyətəyik?

XXI əsr elektron texnologiyalar və informasiya əsridir. Bu dövrdə əsas fəaliyyət sahələri elektron platformaya keçir. Bu istiqamətdə əsas rolu öz üzərinə internet götürüb. İnternet informasiya məkanına tam nüfuz edib və artıq operativliyə və əhatə dairəsinə görə ənənəvi elektron media vasitələrini- televiziya və radionu da geridə qoyub. İndi hər kəs yuxudan duran kimi birinci sosial şəbəkələrə daxil olur ki, görək ölkədə, dünyada nə baş verir, kim kimə nə deyib. Əlaqələr də daha çox internet üzərindən qurulur, messencerlər, sosial şəbəkələr, email sistemləri və s. vasitəsilə.

### İnternet resurslarından kim necə istifadə edir?

Bu virtual dünyada artıq 3 milyard adam var, Azərbaycanda isə azı 5 milyon. Sosial şəbəkələrin gücü, qüdrəti haqda danışmaq üçün təkcə ərəb ölkələrindəki, Ukraynadakı vətəndaş müharibələrində onun rolunu xatırlamaq kifayətdir. Əhəmiyyəti haqda isə istənilən qədər danışmaq olar.

Bu sosial şəbəkənin varlığı informasiya azadlığını son həddə çatdırıb. İndi heç bir hadisəni, xəbəri, faktı gizlətmək mümkün deyil. Hərənin əlində bir smartfon (dolayısı ilə foto və videokamera, diktafon, internet, poçt qutusu və s.) var və məlumatı hadisə yerindən birbaşa yayımla verirlər.

Bu qlobal şəbəkənin başqa əhəmiyyətli tərəfləri də var. İndi hər gün ölkədə və dünyada baş verənlərdən hali olmaq üçün onlarla qəzeti, saytı nəzərdən keçirməyə ehtiyac yoxdur. Sosial şəbəkəyə girirsən və görürsən ki, bütün xəbərlər, yazılar, maraqlı materiallar paylaşılıb- necə deyərlər, hamısı bir arada. Xüsusilə də, jurnalistlər üçün sosial şəbəkənin əvəzi yoxdur.

Hətta siyasi mübarizə də vitual məkana transformasiya olunub. Meydanlara çıxa bilməyən müxalifət burda fəal mübarizə aparır. Opponentləri ilə uzun sürən virtual döyüşlər keçirirlər. Mətbuat da bu mübarizəni işıqlandırır.

Sosial şəbəkələrdə müxtəlif aksiyalar, təbliğat, reklam kampaniyaları da aparılır. Bunların bəziləri humanist xarakter daşıyır, kiməsə qan lazımdır, kiminsə müalicəsinə kömək lazımdır, uşaq evlərinə yardım üçün aksiya keçirilir və s.

Burda öz əsərlərini, yazılarını, fərdi xüsusiyyətlərini, naliyyətlərini, münasibətlərini, istehsal etdiyi və ya satdığı məhsulları, göstərdiyi xidmətləri cəmiyyətə çatdırmağa çalışanlar az deyil. Lakin bu məkandan özünüreklam, yaltaqlıq, hamam suyu ilə dost tutmaq, başqasını ləkələmək, təxribat təşkil etmək məqsədilə də gen-bol istifadə olunur. Bir sözlə internet məkanında həmişə mübarizə, müharibə gedir. İndi bu "müharibə" artıq başqa müstəviyə keçib və Vətən müharibəsinin elementi kimi qəbul olunur.

İnformasiya müharibəsində qalib olmaq nə üçün vacibdir"

Sosial şəbəkələrdə müxtəlif dövlətlərin casus və təbliğat qrupları fəaliyyət göstərir. Onların məqsədi ictimai fikri işlədikləri dövlətin maraqlarına kökləmək, daxili ictimai-siyasi vəziyyəti gərginləşdirmək və dolayısı ilə ortalığı qarışdırmaqdan ibarətdir.

Belələrini aşkar etmək çətin deyil, "həftə səkkiz- mən doqquz" xarici ölkələrə "gəzməyə" gedən bu gənclər (yaşlılar da az deyil) müvafiq "verbovka" kursunu keçib geri göndərilir. Bütün hadisələrdə də konkret xarici dövlətin maraq və mənafelərindən çıxış edirlər.

Sosial şəbəkələrdə xarici qüvvələrin maraqlarına işləyən minlərlə profil, qrup, səhifə yaradılıb. Öz xalqının, öz dövlətinin mənafeyinə çalışanların qrup və səhifələri isə çox azdır. Belə istifadəçilər var gücləri ilə maarifləndirici materiallar yayırlar, xarici və daxili düşmənlərə qarşı virtual da olsa döyüşürlər, amma onlar həmin mütəşəkkil qruplar tərəfindən hücuma məruz qalır.

Sosial şəbəkələrdə və digər onlayn resurslarda mübarizə təkcə cəmiyyətdaxili ideoloji və sair müstəvilərdəki mübarizədən ibarət deyil, qlobal məkanda dövlətlərarası mübarizə də gedir. Azərbaycanın Ermənistan və erməni lobbisi kimi düşməni var. Torpaqlarımızı işğal edən, xalqımızı soyqırım və deportasiya məruz qoyan erməni faşistlərinə qarşı real müstəvidə döyüşlə birgə, virtual müstəvidə də müharibə aparmalıyıq.

Hazırda elə belə edirik. Virtual məkanda sözün əsl mənasında müharibə gedir - informasiya müharibəsi. İnformasiya müharibəsi hazırki dövrdə çox vacibdir. Dünya ictimaiyyətinə həqiqətləri çatdırmaq üçün sosial şəbəkələrdən, onlayn informasiya sistemlərindən səmərəli istifadə etmək lazımdır. Bunun üçün savadlı olmalı, azı 1-2 beynəlxalq dili bilməli və o dillərdə mübaizə aparmalıyıq.

Lakin təəssüflə qeyd etməliyik ki, ermənilər bu imkanlardan daha yaxşı istifadə edirlər. Əksər mübahisə və müzakirələrdə ermənilər üstünlüyü ələ alır, çünki bizimkilər öz auditoriyamızda bir-birinə eyni xəbərləri yazıb paylaşmaqla məşğuldur, halbuki gedib rus və ingilis dillərində qlobal şəbəkələrdə mübarizə aparmalıyıq. Nəticədə, bu sahədə zəif vəziyyətə düşürük. Beləliklə, virtual məkanda gedən müharibədə vəziyyət hələ ki bizim xeyrimizə deyil.

### Qarabağ həqiqətləri informasiya müharibəsi müstəvisində

Son günlər Azərbaycan Ordusunun işağlçı və terrorçu Ermənistan ordusuna qarşı Qarabağda əks-hüuma keçməsi və döyüşlərin başlaması ilə bağlı qlobal informasiya məkanında virtual müharibə daha da aktivləşib. Ermənilər bütün sosial şəbəkələrdə, forumlarda, media orqanlarında dezinformasiya və əks-təbliğat kampaniyası aparırlar. Yaydıqları məlumatların demək olar ki, hamısı saxta, yalan və qərəzlidir. Azərbaycanlı, rus, ingilis, türk adları ilə profillər, səhifələrdə saxta məlumatlar yayırlar.

Bloklanmış sosial şəbəkələrə giriş üçün VPN proqramlarının mövcudluğu, hökumətin bu həssas məqamda dezinformsiya və təxrbatların qarşısını almaq üçün həyata keçirdiyi təhlükəsizlik tədbirlərinin təsirini azaldır. Əksəriyyət bu proqramların kömәyi ilə istədikləri resursa daxil olur, nəticədə bəzi vətəndaşlarımız bilərəkdən və ya bilməyərəkdən saxta və təxribatçı informasiyaların yayılmasına şərait yaradır. Lakin unutmaq lazım deyil ki, bunlar casus proqramlarıdır və onu yükləyən şəxsin bütün məlumatlarını, parollarını, şəxsi fəaliyyətini nəzarət altına alır.

Sosial şəbəkələrdə hərə ağlına gələni yazır, bir çoxu da bilərəkdən ya da bilməyərəkdən erməni dezinformasiya və təbliğat maşınına xidmət edir. Bilərəkdən edənlər əsasən yazırlar ki, filan qədər şəhid vermişik, filan qədər texnikamız vurulub... Mənbə də hara olsa yaxşıdır? Erməni mediası və ya sosial şəbəkə səhifələri. Bu qədər də axmaq, savadsız, düşüncəsiz olmaq olmaz. Demək bu aşkar provakasiyadır və bunu qəsdən edirlər. Bilərəkdən edənləri qoyaq bir kənara. Onların işi budur, vətəni, xalqı satmaqla müəyyən xarici dairələrdən yaxşı pul alırlar. Əsas məsələ bilməyərək edənlərin maarifləndirilməsidir.

İnformasiya müharibəsində hansı səhvlərə yol veririk?

Məsələn yazırlar ki, ordumuz Xankəndini dəhşətli bombardmana tutub, xeyli erməni qırılıb. Bu əlbəttə, ermənilərin yaydığı saxta məlumatdır və məqsədi də məlumdur. Ermənilər neçə gündür elə son çarə kimi bundan yapışıb bütün dünyaya dezinformasiya yayırlar ki, Azərbaycan ordusu mülki əhalini körpələri qırır, bizim sadəlövh şəbəkə istifadəçiləri isə bu məlumatı bilməyərəkdən düşmənə xidmət edirlər. Halbuki, ordumuz sırf hərbi obyektlərə zərbə endirir və mülki əhaliyə toxunmur. Bunu Ali Baş Komandan da qəti şəkildə bəyan edib.

Biri yazır ki, Kəlbəcəri tam mühasirəyə almışıq. Ay yoldaş, sən heç məktəbə getməmisənmi, orada coğrafiya keçməmisənmi, öz ölkənin xəritəsini bircə dəfə belə görməmisənmi? Kəlbəcərin yarısı Ermənistanla sərhəddir, onu tam mühasirəyə almaq üçün gərək Ermənistanla sərhədi tutasan. Ermənilər də elə çalışır dünyaya desinlər ki, bunların dərdi Qarabağ deyil, Ermənistanı işğal etmək, erməniləri qırmaqdır. Nəyə xidmət etdiyinin fərqindəsənmi, vətəndaş?!

Biri yazır ki, türk əsgərləri erməni ordusunu məhv edəcək. Erməni də xristian ölkələrinə bunu deyir ki, Azərbaycanın yanında 3-cü ölkə döyüşür, siz də bizə kömək edin. Bizim öz ordumuza nə gəlib ki, başqa ölkənin ordusu gəlib bizim düşmənimizlə döyüşsün? Düşmənin dəyirmanına su tökməyin bir yana qalsın, ordumuzu niyə təhqir edirsən, vətəndaş?! Mahiyyətini, mənbəyini bilmədiyin xəbərləri yayma. Xəbər yaymaq işi ilə jurnalistlər məşğul olur. Sən də get iynəni vur, dərsini keç, mebelini düzəlt, yeməyini bişir, evini tik. Hərə öz işi ilə məşğul olsa yaxşıdır.

Bəziləri yazır filan rayonları almışıq. Əvvəla, beş-on bəyənmə qazanmaq üçün belə həssas məsələdə artistik etmək lazım deyil. İkincisi, əgər almışıqsa belə, bunu Müdafiə Nazirliyi lazım bildiyi vaxt elan edəcək, gedib işinlə məşğul olsan ki.

Əgər proseslərin mahiyyətini, nəyi yazıb nəyi yazmamağı, kimə istinad etməyi bilmirsinizsə, ən yaxşısı, sakit durun. Düşünülməmiş fəaliyyətinizlə ölkəyə, xalqa zərər vurmayın. Dövlət bilir nəyi necə etmək lazımdır nə vaxt demək lazımdır.

*Elçin Bayramlı*

**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu**

***Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# Səs

Son səhifə

1 oktyabr

## Messi azarkeşlərdən üzr istədi



***“Barselona”nın kapitanı Lionel Messi azarkeşlərə müraciət edib. Qol.az İspaniya mətbuatına istinadən xəbər verir ki, argentinalı hücumçu klubla arasında baş verən anlaşılmazlıqlara görə tərəfdarlardan üzr istəyib:***

“Əgər sizi məyus etdimsə, üzr istəyirəm. Səhvlərim varsa, məsuliyyəti öz üzərimə götürürəm. Hər şeyi “Barselona”nın daha da yaxşı olması üçün etmişəm. Yaşanan anlaşılmazlıqlara artıq son vermək istəyirəm. “Barselona”nın gələcəyi üçün artıq bir olmağımız lazımdır. Yalnız belə olacağı təqdirdə hədəflərimizə çata bilərik”.

Qeyd edək ki. Kataloniya kubundan ayrılacağı haqda xəbərlər yayılsa da, 33 yaşlı hücumçu sonda La Liqa tmsilçisində qalmağa qərar vermişdi.

## FİFA Naftalanda həlak olmuş 14 yaşlı Şəhriyara görə AFFA-ya məktub göndərdi




Beynəlxalq Futbol Assosiasiyaları Federasiyası (FİFA) ermənilər tərəfindən qətlə yetirilmiş yeniyetmə futbolçu Şəhriyar Qurbanovun ölümü ilə bağlı başsağlığı verib. SİA xəbər verir ki, AFFA-ya müvafiq məktub planetin əsas futbol təşkilatından göndərilib. “Bu məktub vasitəsi ilə biz bu yaxınlarda öldürülmüş azyaşlı futbolçu Şəhriyar Qurbanovla bağlı səmimi olaraq dərin kədərləndiyimizi bildiririk”, yazılan məktubda qeyd olunur ki, təşkilat eyni zamanda Şəhriyar Qurbanovun ailəsinə və “Naftalan” klubunda oynayan yoldaşlarına, yaxınlarına da baş sağlığı bildirir.

“Belə ağır anda ümid edirik ki, bizik kədərimiz onlar üçün rahatlıq olar” deyə FİFA-nın başsağlığında vurğulanır. Qeyd edək ki, FİFA ilk beynəlxalq təşkilatlardandır ki, sentyabrın 27-də Ermənistan silahlı qüvvələri tərəfindən Naftalan rayonunun Qaşaltı kəndini atəşə tutması nəticəsində 13 yaşlı Şəhriyarın və daha dörd ailə üzvünün ölümünə görə reaksiya verib. Məhz bu hadisədən sonra AFFA müvafiq məktublarla FİFA-ya və UEFA-ya məktublar göndərmişdi.

## FİDE reytinqi açıqladı



Beynəlxalq Şahmat Federasiyası (FIDE) yeni reytinq siyahısını açıqlayıb. Qurumun saytında yer alan məlumatda deyilir ki, ilk “10-luq”da Azərbaycanın 2 təmsilçisi yer alıb. Aktivində 2770 xal olan Şəhriyar Məmmədyarov 4 pillə irəliləyib və 7-ci sıraya yüksəlib. 2 765 xalı olan Dünya Kubokunun qalibi Teymur Rəcəbov isə 1 pillə geriləyib və 10-cu yerdə qərarlaşıb.

Qədir Hüseynov 2 665 xalla 73-cü, Nicat Abbasov 2 664 xalla 75-cidir. Onların hər ikisi 2 pillə geriləyiblər. 2 654 xalı olan Rauf Məmmədov isə 91 - 93-cü yerləri bölüşdürür.

Siyahıya yenə norveçli dünya çempionu Maqnus Karlsen 2 863 xalla başçılıq edir. ABŞ təmsilçisi Fabiano Karuana 2 828 xalla 2-ci, çinli Dinq Liren 2 791 xalla 3-cüdür. Qadınlardan Günay Məmmədzadə 2 443 xalla 28-ci pilləyə yüksəlib. 2 382 xala malik Gülnar Məmmədova 73-cü sırada yer alıb. 2 376 xalı olan Xanım Balacayeva isə 1 pillə irəliləyərək 82-ci sırada qərarlaşıb.

## “Nar”ın baş sponsorluğu ilə “Breyn Rinq”in yeni mövsümünə start verilir




**Ölkənin ən maraqlı və baxımlı intellektual yarışı olan “Breyn Rinq”in 16-cı mövsümü “Nar”ın baş sponsorluğu ilə yenidən start götürür. Hər zaman gənclərin intellektual inkişafına xüsusi önəm verən “Nar”, artıq 8 ildir ki, “Breyn Rinq” intellektual yarışının baş sponsorudur. Bu mövsüm mübarizəyə ölkə üzrə 6 region və 6 universiteti təmsil edən 16 komanda qoşulub. Yarış hər həftənin cümə günü saat 19:50-də İctimaiTeleviziyada yayımlanacaq.**

**Builki mövsümün özəlliyi yarışın pandemiya şərtlərinə uyğun olaraq keçirilməsidir. Belə ki, hər buraxılışda tamaşaçıların iştirakı olmadan sadəcə iki komanda yarışacaq. Bundan başqa yarışda iştirak edən hər bir komanda və heyət üzvü çəkilişdən öncə COVİD-19 testindən keçməlidir.**

**Qeyd edək ki, “Bilik” kuboku və “Nar” tərəfindən təsis edilmiş “Nar” kubokunun qalibləri Azərbaycan çempionu titulu uğrunda yarışmaq hüquqı əldə edir. Bu mövsüm isə komandalar “Bilik” kuboku uğrunda mübarizə aparacaq. “Bilik” kubokunu qazanan komanda isə ötən mövsüm “Nar” kubokunun qalibi olmuş “Nar” komandası ilə “BreynRinq 2020” Azərbaycan çempionu titulu uğrunda mübarizə aparacaq. “Nar”ın təhsilin inkişafına yönəlmiş digər layihələri ilə Nar.az səhifəsindən tanış ola bilərsiniz.**

## Bakıda evləri qarət edən şəxslər tutuldu

Oğurluq etdiyinə görə tutulmuş S.Mustafayevin və M.İsrafilovun 1 evdən oğurluğa cəhd, 5 evdən isə oğurluq törətmələri də müəyyən edilib. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, oğurluq etdiyinə görə tutulmuş S.Mustafayevin və M.İsrafilovun ətraflarında Suraxanı RPİ 33-cü PB-nin əməkdaşları tərəfindən aparılmış əməliyyat tədbirləri ilə onların bir evdən oğurluğa cəhd, 5 evdən isə pul və qızıl-zinət əşyaları oğurlamaları da müəyyən edilib.

## Bakı sakinindən silah-sursat götürülüb



Bakı şəhər sakini M.Sultanovdan silah-sursat götürülüb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, Binəqədi RPİ 7-ci Polis Bölməsi əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Bakı şəhər sakini M.Sultanovdan “Makarov” markalı tapança, patron sandığı və 5 ədəd patron götürülüb.

## Amerikalı məşhur aktrisa gizli şəkildə evləndi



Aktrisa Emma Stounvə SNL-in rejissoru Deyv Makkeri ailə həyatı qurub.

Bu barədə “Daily Mail” xəbər yayıb. Məlumata görə, cütlük nişanlandıqlarını ötən ilin dekabr ayında elan etmişdi, bu ilin martında isə toyları gözlənilirdi. Ancaq koronavirus pandemiyası səbəbindən mərasimin təxirə salındığı deyildi. Nəşr əslində həmin vaxt nikah mərasiminin olduğu iddialarını irəli sürüb.

Paparazi 31 yaşlı Emma ilə 35 yaşlı Deyvi Los-Anceles şəhərində gəzintidə çəkib. Hər iki cütlüyün barmağında üzük olub. Aktrisa iri qaşlı nişan üzüyünü, sadə klassik qızılla əvəz edib. Bundan başqa Stounun əynində onun yumru qarnını gizlədə bilməyən kombinezon olub. Bundan sonra onun hamiləliyi barədə ehtimallar irəli sürülüb.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.**
**“Azərbaycan” nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**